# İcra başçısı birinci müavinini dəyişdirdi


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№14 (3353) 22 Aprel / 2025-ci il  Həftədə 1 dəfə çıxır  Qiymәti: 60 qәpik


ANA XƏBƏR



## DTX-dən yeni əməliyyat...

# Bakının mərkəzində daha bir qanunsuz söküntü

Xuraman Nağıyevaya məxsus obyekti özündən xəbərsiz sökdülər, içindəki əşyaları oğurladılar...




GÜNÜN NƏBZİ

Müsahibə

## "Bu cür cinayətlərin sayı çoxdur..."



Əlibaba Rzayev: "Adam nə içki içəndir, nə siqaret çəkəndir, guya, üzərində narkotik aşkarlanıb..." 8

Gündəm

## ADP Fransa rəhbərliyinə çağırış etdi

"Bu deputatların məsuliyyətsiz addımlarının qarşısını alın!" 2

Aktual

## Ziyanın yarısından qayıdan Ziya Məmmədov...

Keçmiş nazir "ailə dostu" Trampın yadına düşəcəkmi? 5

Şikayət

## Nazir Rəşad Nəbiyev tapşırıq verdi, işçiləri əməl etmədi

"Dedi ki, istəyirsən Prezidentə yox, lap Səddam Hüseynə şikayət et..." 7

Toplum

## Azərbaycanda "brend mallar" adı altında keyfiyyətsiz məhsullar satılır

Heç bir qurum məsuliyyəti öz üzərinə götürmək istəmir 6

Ölkə

## "İnsanlar gömrüyə haqsız ödənişlər etmək istəmirlər"



İqtisadçı Natiq Cəfərli: "Onlardan terminal pulu, sənəd pulu, qələm-mürəkkəb pulu yığılır" 12

Gündəm

## Ədalət Partiyasında mübahisələr qızışır



Məclis sədri qurultaya hazırlığa veto qoydu 2

Əyalət

## Astara xəstəxanasının baş həkimindən şikayət

24 ilin tibb işçisi qanunsuz yerə işdən çıxarıldığını iddia edir

Astara rayonu, Şahağac kənd sakini İsmayılova Firavan Sərdar qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət daxil olub. Şikayətçi bildirir ki, Astara Mərkəzi Xəstəxanasının baş həkimi Oktay Əmənullayev onu qanunsuz olaraq işdən çıxarıb "Mən, İsmayılova Firavan Sərdar qızı, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız. 10

Fakt

## Narkoticarətə qarşı mübarizə niyə ciddi nəticə vermir?

Narkomaniyaya qarşı mübarizənin təməl dayaqlarından biri, bəlkə də birincisi narkoticarətin qarşısını almaqdır. Çünki narkotik yoxdursa, istifadə etməyə "mal" da olmayacaq. Bu baxımdan, narkomanlığa və narkotik ticarətinə qarşı mübarizə kampaniyasının ən zəruri tərəfi satıcıların, xüsusilə də iri ranqlı satıcıların - baronların önünü kəsməkdir. Bunun üçün isə əsas zərbə vurulmalı cinah rüşvətlə ələ alına bilən, hansısa şəxsi maraqlar naminə narkotikin ölkəyə ayaq açmasına göz yuman səlahiyyətli şəxslərdir. 3

SİZİN ÜÇÜN QƏZET
# Hürriyyət
№14 (3353) 22 Aprel / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymətı: 60 qəpik

# 2025-ci il üçün həyəcanlı proqnoz

## Kennedinin öldürülməsini proqnozlaşdıran qadından sensasion açıqlama

**20-ci əsrin ən səs-küylü faciələrindən bəzilərini proqnozlaşdıran amerikalı görücü Cin Dikson, həyatı boyu 2025-ci ildə baş verə biləcək ciddi sarsıntılar barədə xəbərdarlıq edib.**



Lent.az xarici KİV-ə istinadla bildirir ki, Cin Dikson, sonradan qorxunc dəqiqliklə gerçəkləşən bir sıra peyğəmbərlik proqnozları sayəsində ABŞ-da geniş populyarlıq qazanıb.

Cin Dikson karyerasına müxtəlif çap nəşrləri üçün ulduz falı yazmaqla başlayıb, lakin sonradan kristal kürədən istifadə edərək öncəgörmələrə keçib. Onun əsl şöhrəti mühüm dünya hadisələrini proqnozlaşdırmaqdan qaynaqlanıb. O, gələcək üçün proqnozları olan tərcümeyi-halı da daxil olmaqla yeddi kitabın müəllifi olub.

1971-ci ildə yazdığı "Peyğəmbərlik hədiyyəsi: Cin Dikson fenomeni" adlı memuarında o, Nyu-Yorkda terror hücumunun görüntüsünü təsvir edbi ki, çoxları bunu 2001-ci il sentyabrın 11-də Dünya Ticarət Mərkəzinin "Əl-Qaidə" tərəfindən dağıdılmasının xəbərçisi hesab edir. Onun öncəgörmələri yalnız keçmişlə məhdudlaşmayıb: mətnlərində o, gələcəkdə, xüsusən 2025-ci ildə baş verəcək hadisələri də təsvir edib.

"Mənim həyatım və proqnozum" (1969) kitabında o, 2025-2037-ci illər arasında Çin və Rusiya arasında böyük müharibənin başlayacağı barədə xəbərdarlıq edib.

"2025-ci ildə Çin o qədər siyasi və iqtisadi sabitliyə nail olacaq ki, genişmiqyaslı ekspansiyaya başlayacaq. O, Rusiyaya soxulacaq, onun şimal ərazilərini ələ keçirəcək və Almaniyanın sərhədlərinə çataraq Skandinaviyaya qədər irəliləyəcək. Pekin Qərbi Avropaya müdaxilə etməyəcək. Eyni zamanda, Rusiya Yaxın Şərq və Afrikanın İran, Efiopiya və Liviya da daxil olmaqla bir neçə ölkəsinə nəzarət edəcək. Bu münaqişə 12 il davam edəcək-2037-ci ilə qədər", - Dikson qeyd edib.

Cin Diksondan digər proqnozlar:

- O, Riçard Niksonun 1968-ci ildə ABŞ prezidenti olacağını, lakin səlahiyyət müddətini başa vurmayacağını proqnozlaşdırmışdı - və belə oldu: o, 1974-cü ildə Voterqeyts qalmaqalından sonra getdi.
- Nikson onun öncəgörmələrindən o qədər təsirlənib ki, onu Ağ evə dəvət edib. 1972-ci ildə ona mümkün terror hücumu barədə xəbərdarlıq edib - tezliklə Münhendə
- Olimpiada zamanı terror aktı baş verib. Şayiələrə görə, Terrorla mübarizə komitəsi məhz bu proqnoza görə yaradılıb.
- O, 1989-cu ilin ekoloji fəlakətini - Alyaska sularına böyük neft sızması ilə nəticələnən Exxon Valdez tankerinin qəzasını qabaqcadan görmüşdü.
- 1977-ci ildə Opri Uinfri böyük bir televiziya karyerasına proqnozlaşdırıb və bir neçə il ərzində onun şousu milli hitə çevrilib.

Dikson öncəgörmə qabiliyyətini Tanrıdan aldığını və dini icmaların dəstəyinə sahib olduğunu iddia etsə də, bütün proqnozları reallaşmayıb:

- SSRİ-nin Aya insanı ilk endirməsi ilə bağlı yanılıb.
- 1958-ci ildə Üçüncü Dünya müharibəsinin başlanmasını nəzərdə tuturdu.
- Xərçəng dərmanının 1967-ci ildə tapılacağını söyləyib.
- 1980-ci illərdə yeni bir Holokost olacağını iddia edib.
- Dünyanın ən güclü imperiyası kimi Roma İmperiyasının dirçəlişini proqnozlaşdırıb.

*Əyləncə səhifəsi*

# Moskvada erməni ailəsində səs-küylü qətl...

## Atanın öz doğma qızlarına təcavüz etdiyi təsdiqləndi

**Rusiyada Moskvanın Butırski Məhkəməsi paytaxtda yaşayan erməni ailəsində baş verən qətl hadisəsi ilə bağlı qərar qəbul edib.**

Məhkəmə öz qızları tərəfindən qətlə yetirilən 57 yaşlı Mixail Xaçaturyanın cinayət işi üzrə yekun qərarını elan edib və onu qızlarına qarşı ağır bədən xəsarəti yetirməkdə və cinsi zorakılıq etməkdə ölümündən sonra təqsirli bilib.

Bu barədə Rusiya KİV-ləri xəbər verir.

Məlumata görə, Xaçaturyanın işi üzrə cinayət təqibinə onun ölümü ilə əlaqədar xitam verilib.



"Məhkəmə Mixail Xaçaturyanın bütün maddələr üzrə təqsirli bilinməsi barədə qərar qəbul edib. Onun barəsində olan cinayət işinə ölümü ilə əlaqədar xitam verilməlidir. Təqsirləndirilən şəxsə qarşı cinayət təqibi islah olunmayan əsaslarla dayandırılmalıdır", - deyə hökmdə bildirilib.

Hökmün elan edilməsi zamanı məhkəmə zalında müdafiəçilərlə yanaşı Xaçaturyanın iki qızı da iştirak edib.

Xatırladaq ki, səs-küylü qətl hadisəsi 2018-ci ilin iyulunda baş verib. Mixail Xaçaturyan Moskvadakı mənzilində qətlə yetirilib. İstintaqın versiyasına görə, üç qızı ona bıçaq və çəkiclə çox sayda zərbə yetirib. İstintaq hesab edir ki, Xaçaturyan üç qızı tərəfindən bıçaqlanaraq öldürülüb.

Qızların yaxınlarının dediyinə görə, buna səbəb ataları tərəfindən onlara qarşı uzun müddət davam edən məişət zorakılığı olub. Bacıların işi hələ bağlanmasa da, məhkəmənin atanın təqsirli olması ilə bağlı çıxardığı qərar onların təqsirsizliyinin sübutlarından biri olacaq.

Eyni zamanda, 2021-ci ilin avqust ayında bacılara qarşı ataları Mixail Xaçaturyan tərəfindən işgəncə, cinsi zorakılıq və döyülmə ilə bağlı cinayət işi çərçivəsində psixiatrik müayinə kişinin qızlarına təcavüz etdiyini üzə çıxarıb.

# ABŞ-də daha bir mesaj qalmaqalı

## Müdafiə naziri həyat yoldaşına məxfi məlumat göndərib

ABŞ-nin müdafiə naziri Pit Heqsetin Yəmənə qarşı hərbi əməliyyat planlarını həyat yoldaşı, qardaşı və vəkili ilə özəl "Signal" qrupunda paylaşdığı məlum olub.



Bu barədə xarici KİV-lər məlumat yayıb. Qeyd olunur ki, məsələ ilə yaxından tanış olan 4 nəfər bu söhbətdə "F/A-18" hornetlərinin uçuş vaxtlarının da paylaşıldığını bildirib. Məlum olub ki, eyni məlumat təsadüfən "The Atlantic" redaktorunun da daxil olduğu başqa bir söhbət qrupuna göndərilib. Bildirilir ki, "Defense I Team Talk" adlanan "Signal" çat qrupu Heqset tərəfindən yanvar ayında yaradılıb və həyat yoldaşı da daxil olmaqla onlarla insanı əhatə edir. Bu səbəbdən Müdafiə Nazirliyi və ya hər hansı digər dövlət qurumu ilə heç bir əlaqəsi olmayan Cennifer Heqset əri tərəfindən paylaşılan məxfi məlumatları görüb. Müdafiə nazirinin qardaşı Pil Heqset və onun vəkili isə Pentaqonda işləyirlər. Lakin onların hər ikisinin Yəmən hücumları ilə bağlı aktual məlumatlara niyə ehtiyacı olduğu bilinmir.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# DTX-dən yeni əməliyyat

## Xaricdə gizlənən şəxsi ölkəyə gətirərək həbs etdi

**Bakı şəhər Səbail rayon məhkəməsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan cinayət işi üzrə saxlanılmış Nəcimov Ruslan Rafiq oğlu barəsində müstəntiqin vəsatəti və prokurorun təqdimatı əsasında həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə prosesi keçirilib.**

Müəyyən edilib ki, sabit silahlı qrup tərkibində terrorçuluqla bağlı cinayət əməllərinin törədilməsində şübhəli bilinən, 1987-ci il təvəllüdlü Azərbaycan Respublikasının vətəndaşı Nəcimov Ruslan Rafiq oğlu müxtəlif adlar altında xarici ölkə ərazisində gizlənməyə çalışıb.

DTX tərəfindən həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində Ruslan Nəcimovun xaricdə saxlanılaraq bu il aprelin 15-də ölkə ərazisinə gətirilib istintaqa cəlb olunması təmin edilib.

Məhkəmənin qərarı ilə Ruslan Nəcimovun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

# Arvadını pəncərədən atan şəxsə hökm oxundu

**Abşeronda həyat yoldaşını öldürməkdə təqsirləndirilən Hüseyn Kazımovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**



APA xəbər verir ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Nürəddin Hüseynlinin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən Hüseyn Kazımov 16 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

Qeyd edək ki, Abşeron rayon prokurorluğunun yaydığı məlumata görə, ötən il iyulun 23-ü saat 07 radələrində 2002-ci il təvəllüdlü Ayşən Kazımovanın Abşeron rayonu Xırdalan şəhəri ərazisində hündürmərtəbəli binadan yıxılması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırma zamanı 2002-ci təvəllüdlü Hüseyn Kazımovun aralarında yaranmış mübahisə zamanı arvadı Ayşən Kazımovanı yaşadıqları mənzilin pəncərəsindən yerə atması nəticəsində sonuncunun çoxsaylı bədən xəsarətləri almasına əsaslı şübhələr müəyyən edilib. Xəstəxanaya yerləşdirilən Ayşən Kazımova orada ölüb. Hüseyn Kazımov saxlanılıb.

# ADP Fransa rəhbərliyinə çağırış etdi...

## "Bu deputatların məsuliyyətsiz addımlarının qarşısını alın!"

Dünən Azərbaycan Demokrat Partiyası (ADP) İdarə Heyətinin ötən həftə ərzində ölkədə və regionda baş verən ictimai-siyasi hadisələrin müzakirəsinə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə Türk Dövlətlər Təşkilatına daxil olan Qazaxıstan, Özbəkistan və Türkmənistanın Kipr adasının cənubundakı yunan administrasiyasını dövlət kimi tanımaları və orada diplomatik nümayəndəliklər açmaları ətrafında Azərbaycan, Türkiyə və Rusiya mətbuatında yaradılan ajiotaja bir daha münasibət bildirib.

İdarə Heyəti hesab edib ki, bu hadisə ətrafında yaradılan yersiz ajiotaj Türk Dövlətlər Təşkilatının yaranmasında maraqlı olmayan qüvvələrin işidir. Bu baxımdan Türk Dövlətlər Təşkilatının perspektiv inkişafı naminə bu tipli yanlış addımlardan çəkinməliyik.

İdarə Heyəti ötən həftə Ermənistanda qondarma "artsax parlamentinin" iclas keçirərək bir sıra qərarlar qəbul etməsi məsələsini də müzakirə edib. Müzakirələrdə qeyd edilib ki, 2023-cü ilin 19 sentyabr tarixli 1 günlük antiterror əməliyyatından sonra özünün buraxılması barədə bəyanat verən bir qrupun yenidən belə bir addım atması beynəlxalq hüquq normalarına ziddir. İdarə Heyəti bu hadisəni Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanmasının əleyhinə olan qüvvələrin təxribatı kimi dəyərləndirib və iki dövlət arasındakı münasibətlərin gərginləşməsinə xidmət etdiyini bildirib.

İdarə Heyəti eyni zamanda fransalı deputat N.Metzdorfun Ermənistanda Qarabağ separatçısı S.Şahramanyanla görüşünü, onu Dağlıq Qarabağın "mühacirətdə olan prezidenti" kimi təqdim etməsini qətiyyətlə pisləyib. Bu addımı separatizmə dəstək və Ermənistanın və Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi dəyərləndirən toplantı iştirakçıları Fransa dövlətini bu tipli deputatlarının məsuliyyətsiz addımlarının qarşısını almağa çağırıb. İdarə Heyəti baş verənlərə rəğmən, bölgədə davamlı sülhün və təhlükəsizliyinin şərti kimi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin tezliklə imzalanmasının vacibliyini bir daha qeyd edib.

İdarə Heyəti son zamanlar ABŞ-İran və İran-İsrail münasibətlərindəki mövcud olan gərginlik ətrafında da müzakirə aparıb. Müzakirələrdə regionda yeni hərbi eskalasiyanın qarşısının alınması baxımından mövcud gərginliyin diplomatik yollarla həll edilməsinə yönələn cəhdləri alqışladığını bildirib.

İdarə Heyəti katoliklərin dini lideri Roma Papası Fransiskin vəfat etməsindən təəssüfləndiyini bildirib, bu şəxsin dinlərarası sülhə və əmin-amanlığa verdiyi töhfələri yüksək qiymətləndirib, bundan sonra seçiləcək Roma Papasının da bu missiyanı uğurla davam etdirəcəyinə əminliyini ifadə edib.

İdarə Heyəti ötən həftə leysan yağışları nəticəsində Bakı şəhərinin bir çox yerlərində, xüsusilə tunellərdə yaranan subasmalarla bağlı da müzakirə aparıb. Müzakirələrdə baş verənləri dövlət məmurlarının səriştəsiz və öz vəzifələrinin öhdəsindən gələ bilmədiklərinin məntiqi nəticəsi kimi dəyərləndirən toplantı iştirakçıları, Bakı şəhərinin infrastruktur layihələrinə ayrılan külli miqdarda büdcə vəsaitlərinin korrupsiyaya uğradığını bildirib.

İdarə Heyəti ötən həftə Bakı şəhərindəki "Venesiya" şadlıq sarayında 50 nəfərə yaxın toy iştirakçısının eyni gündə zəhərlənməsi faktına da diqqət çəkib. Baş verənləri ölkədə qida təhlükəsizliyinə məsul olan dövlət orqanlarının məsuliyyətsiz fəaliyyətinin nəticəsi kimi dəyərləndirib.

İdarə Heyəti həbsdə olan Müsavat Partiyasının üzvü Tofiq Yaqublunun aclıq aksiyası keçirməsi ilə bağlı səhhətində yaranmış problemləri, o cümlədən "Xural TV"-nin rəhbəri Əvəz Zeynallının xərçəng xəstəliyindən əziyyət çəkməsini narahatçılıqla izlədiyini ifadə edib. İdarə Heyəti bir daha ölkə rəhbərliyini humanistlik göstərərək siyasi motivlərlə həbsdə olan şəxslərin, o cümlədən Tofiq Yaqublunun və Əvəz Zeynallının azadlığa buraxılması ilə bağlı müstəsna səlahiyyətlərindən istifadə etməyə çağırıb.

**Hazırladı: KƏNAN**

# Ədalət Partiyasında mübahisələr qızışır

## Məclis sədri qurultaya hazırlığa veto qoydu

**"Ədalət Partiyasının bir qrup üzvü aprelin 19-da Böyük Məclisin iclasını keçirərək Ədalət Partiyasının 9-cu Qurultayının çağırılması və 17 may 2025-ci il tarixində partiya sədrinin seçilməsi barədə qərar qəbul edib. İclasda qəbul edilən qərarı qanuni hesab etmirəm".**

Bu bəyanatla Partiya sədrinin səlahiyyətlərini müvəqqəti icra edən Ali Məclisin sədri Meydan Babayev çıxış edib.



O, bildirib ki, bu məsələ partiyanın Nizamnaməsində də qeyd olunub. M.Babayev bəyanatına Nizamnamənin müvafiq bəndlərini də əlavə edib:

"4.7.1. Qurultaylararası dövrdə partiyanın ali orqanı Ali Məclisdir. Ali Məclis qurultayın müstəsna səlahiyyətinə aid olan məsələlər istisna olmaqla, partiyanın fəaliyyəti ilə bağlı bütün məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

4.7.2. Böyük Yığıncaq rayon (şəhər) təşkilatlarının qurultayda seçilmiş səlahiyyətli nümayəndələrindən, onların sayının üçdə birindən çox olmayaraq təşkil edilir.

4.7.3. Ali Şura öz sədrini, müavinlərini və katibini seçir. Böyük Məclisin Sədrliyi Böyük Məclisin Sədri, onun müavinləri, katib və müvafiq komissiyaların sədrlərindən ibarətdir".

Məclis sədri vurğulayıb ki, aprelin 19-da keçirilən həmin iclasda partiyanın sədri, Böyük Məclisin sədri və onun müavinləri, Siyasi Şura üzvlərinin mütləq əksəriyyəti iştirak etməmiş, əsasnamənin tələbləri kobud şəkildə pozulmuşdur. "Ona görə də qəbul edilən qərara veto qoyulmalıdır", - o əlavə edib.

Odur ki, partiya Nizamnamısinin 4.8.6 və 4.8.7-ci maddələrinə əsaslanaraq, veto hüququndan istifadə edərək, partiya sədrini əvəz edən şəxsin Ali Məclis sədri və onun müavinlərinin heç birinin, Siyasi şura üzvlərinin isə mütləq əksəriyyətinin iştirakı olmadan 19.04.2025-ci il tarixində nizamnamə tələblərinə zidd keçirilmiş Ali Məclisin iclasının qərarı etibarsız olduğundan veto tətbiq edirəm".

Xatırladaq ki, iki gün əvvəl Ədalət Partiyası sədrinin müavini Mütəllim Rəhimli "Facebook" hesabında aprelin 19-da Partiya Ali Məclisinin iclasının keçirildiyini bildirib. O, qeyd edib ki, Ali Məclis iclasında hər bir rayon təşkilatı bir nəfər nümayəndə ilə təmsil olunur və əlavə olaraq Nizamnamə tələblərinə əsasən ötən qurultayda seçilmiş 15 nəfər iştirak etmək hüququna malikdir: "Qurultayda Ali Məclisə üzv seçilənlərdən 6 nəfəri dünyasını dəyişib və rotasiya qaydasında əvəz olunmur. Hazırda Ədalət Partiyasının 56 rayon təşkilatı olduğundan Ali Məclisin iclasında 65 nəfərin iştirak etmək səlahiyyəti olub. Onlardan 56 nəfəri Ali Məclisin iclasında iştirak edib. 39 nəfər iclasa zoom platforması üzərindən online şəkildə bağlanıb, 17 nəfəri birbaşa iştirak edib. İclasda növbəti qurultaya hazırlıq məsələləri müzakirə olunub. Mayın 17-də Ədalət Partiyasının IX Qurultayının keçirilməsi ilə bağlı yekdilliklə qərar qəbul edilib. Həmçinin Qurultaya hazırlıq üzrə 11 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılıb".

Sədr müavini əlavə edib ki, Təşkilat Komitəsi yaxın günlərdə iclasını keçirərək sədr və müavinlərini seçəcək, Qurultayın keçirilməsi ilə bağlı müvafiq qrafik müəyyənləşdirəcək.

Xatırladaq ki, Ədalət Partiyasını sədri İlyas İsmayılov dünyasını dəyişdikdən sonra təşkilat daxilində mübahisələr başlayıb. Qeyd olunduğu kimi, Məclis sədri Meydan Babayev və tərəfdarları sədr müavini Mütəllim Rəhimlinin qurultaya hazırlıqla bağlı təşəbbüslərini nizamnamədən kənar elan edib. Tərəflər bir-brinin ünvanına qarşılıqlı ittihamlar səsləndirir və gözlənilir ki, Azərbaycan siyasi palitrasında partiyaların parçalanması ənənəsi Ədalət Partiyasında da yan keçməyəcək...

# Narkoticarətə qarşı mübarizə niyə ciddi nəticə vermir?

**Narkomaniyaya qarşı mübarizənin təməl dayaqlarından biri, bəlkə də birincisi narkoticarətin qarşısını almaqdır. Çünki narkotik yoxdursa, istifadə etməyə “mal” da olmayacaq. Bu baxımdan, narkomanlığa və narkotik ticarətinə qarşı mübarizə kampaniyasının ən zəruri tərəfi satıcıların, xüsusilə də iri ranqlı satıcıların - baronların önünü kəsməkdir. Bunun üçün isə əsas zərbə vurulmalı cinah rüşvətlə ələ alına bilən, hansısa şəxsi maraqlar naminə narkotikin ölkəyə ayaq açmasına göz yuman səlahiyyətli şəxslərdir.**



Nəzərə alsaq ki, Azərbaycana narkotikin 99 %-i qaçaqmalçılıq yolu ilə İrandan gətirilir və dəfələrlə rəsmi şəxslərin də diliylə ölkəmizdə narkoticarətin meydan sulamasına İranın bizə qarşı apardığı ”narkotik müharibəsi”nin səbəb olduğu fikir ifadə olunubsa, demək, hədəf bəllidir. Yəni qəbul etməliyik ki, dövlətin müxtəlif pillələrində qərar tutmuş səlahiyyətli şəxslərin qatıqısı olmasa, faktiki bağlı olan quru sərhədlərindən nəzarətsiz bir iynə də keçirmək mümükün deyil.

Əlbəttə, rüşvət və korrupsiya bataqlığında “üzən” məmur üçün narkotikdən gələn dodaqucuqladan həcmdə pullardan imtina etmək çətindir. Odur ki, əgər tezliklə belə şəxslər üzə çıxarılıb ifşa olunsalar, ölkədə narkoticarət də “ayaq tutub yeriməz”. Narkotiklərin qarşısının tam kəsilməsi bəlkə də mümkünsüzdür, amma, bununla ən azı narkotik axınını zəiflətmək mümkün olar. Bu anlamda zərbə hədəfinə öncə tərəzinin ağır gələn tərəfi - yuxarı çinli şəxslər qoyulmalıdır. Proses isə alqoritmik şəkildə tənzimlənməlidir.

Narkotiklərlə mübarizənin tərkibində ümumi olaraq prosesin kortəbii yox, sistemli idarəedilməsi, profilaktikası, becərilməsi, istehsalı, ticarətinin qadağan edilməsi və s. yer alır. Doğrudur, məlumatlara görə, Azərbaycanda narkotik becərilməsi kütləvi xarakter daşımır, olsa da kiçik həcmdədir. İstehsaldan da söhbət getmir, çünki rəsmi versiya narkotkin İrandan gətirilməsi faktı üzərində dayanır. Amma narkoticarət şəbəkəsinin idarəetmə sxeminin varlığı, ticarətinin qarşısının alına bilməməsi inkaredilməzdir.

Mübarizənin uğuru üçün qurumların öz səlahiyyətləri daxilində müəyyən çalışmaları var, amma ciddi nəticə üçün bura ictimaiyyətin iştirakı da qatılmalıdır. Narkomaniyanın pislənməsi son zamanlar reabilitasiyaların işinin işıqlandırılması ilə müşayiət edilir. İrandan PUA-larla keçirilən narkotiklər aşkarlanır və ictimailəşdirilir. Amma, yuxarıda dediyimiz kimi, səlahiyyətli şəxslərin ”töhfə”si olmadan narkoticarəti bu qədər qüsursuz yönəltmək qeyri-mümkündür. Nədənsə, hüquq-mühafizə orqanlarının apardığı əməliyyatlarda indiyə kimi narkotik ticarətinin ərsəyə gəlməsində, ”saat kimi” işləməsində həmin ”töhfə”ni verməkdə olan bir nəfər də vəzifəli şəxs ifşa edilməyib. Halbuki, paytaxt Bakı başda olmaqla, ölkənin istənilən güşəsində ”daşı daş üstünə” qoyan kimi müxtəlif dövlət qurumlarının səlahiyyətli şəxsləri dərhal peyda olurlar. Bəs, necə olur ki, narkotik əməliyyatlarında ancaq “kiçik balıqlar” ələ keçir, amma onları narkoticarət çarxında ”geniş assortimentli malla” təmin edənlər, “ağ ölüm”ü ölkəyə axıdanlar görünməz qalır? Bu anlamda hansı addımları atmaq olar ki, hüquq-mühafizə orqanları ”böyük balıqları” tora salmaqda maraqlı olsunlar?!

O ki qaldı mübarizənin digər tərəflərinə, zənnimizcə, lap aşağıdan başlasaq, məsələn, narkotik satıcıları barədə məlumat verən vətəndaşları həvəsləndirmək, mükafatlandırmaq, onların müdafiəsini təmin etmək olar. Yaxud narkotiklərlə mübarizə ilə məşğul olan könüllülər hazırlamaq, onlarla koordinasiyalı şəkildə işləmək də mümkündür.

Burada haşiyə çıxaraq qeyd edək ki, narkomaniyaya qarşı mübarizə təhsil müəssisələri tərəfindən tərtib edilən təlim-tərbiyə proqramlarına daxil edilməli, ixtisaslı müəllimlərin üzərinə şagirdlər, tələbələr arasında təbliğat aparmaq öhdəçiliyi qoymaq lazımdır. Hətta dəsrliklərə də bu barədə məlumat - əks-təbliğat xarakterli ayrıca fənn salmaq olar.

Narkotikin daşınma ehtimalının olduğu bütün yerlərdə - sərhəd zonalarında, nəqliyyat-kommunikasiya qovşaqlarında və marşrutlarında, liman və hava limanlarında, dəmir yolu və avtovağzallarda, əyləncə məkanlarında nəzarət sistemləri yaradılmalıdır. Narkotiklərlə əlaqəli cinayətlərdə iştirakda şübhəli qismində çıxış edən şəxslərin (o cümlədən, vəzifəli şəxslərin) bank hesabları xüsusi nəzarət tələb edir.

Quru sərhədləri bağlı olduğu halda, hazırda narkoticarətin yüksələn xətlə inkişafı bu nəticəyə gəlməyə əsas verir ki, müvafiq hüquq mühafizə orqanları bu problemin qarşısını almaqda ortaya qənaətbəxş fəaliyyət qoya bilmirlər. Deməli, narkotiklə mübarizə yetərli getmir. Odur ki, ümumi mübarizə sistemində yeniliklər vacibdir. Məsələn, bu tipli addımlar atıla bilər:

**Quru sərhədləri bağlı olduğu halda, hazırda narkoticarətin yüksələn xətlə inkişafı bu nəticəyə gəlməyə əsas verir ki, müvafiq hüquq mühafizə orqanları bu problemin qarşısını almaqda ortaya qənaətbəxş fəaliyyət qoya bilmirlər. Deməli, narkotiklə mübarizə yetərli getmir. Odur ki, ümumi mübarizə sistemində yeniliklər vacibdir. Məsələn, bu tipli addımlar atıla bilər...**

- Narkotik əməliyyatları üçün ayrıca əlahiddə qurum yaradılsın, belə əməliyyatlar onlara həvalə edilsin. Digər qurumların apardığı narkoəməliyyatlar, müsadirələr bu qurum tərəfindən müqayisəli şəkildə analiz edilsin, narkotikin sərhəddən keçirilməsindən bazarda satışa çıxana qədər rolu olan şəxslər bu qurum tərəfindən ifşa edilsin, açıqlansın, ictimailəşdirilsin, tutduğu vəzifədən asılı olmayaraq sərt cəzalandırılsın. Bu proses üçün mexanizmlər hazırlansın.

Çünki hazırda səthi, belə desək, mübarizə xətrinə mübarizənin effektiv olmadığı göz qabağındadır.

- Narkomanların sayı nisbətilə onlara satılan narkotiklərin çeşid və xərclənən pulun miqdarı, bazarda sərbəst dövriyyədə fırlanan narkotiklərin maddi dəyəri, müsadirə olunan narkotiklərin miqdarı, çeşidi və maliyyə dəyəri müqayisə edilsin. İstiqamət olaraq, harada daha çox hansı narkotkin nə qədər satılması, buna necə, kimlər tərəfindən şərait yaradılması, kimlərin səhlənkarlıq edərək, yaxud hansısa maddi maraq üzündən bu ticarətə göz yumması, bu bölgəyə məsuliyyət daşıyan hüquq-mühafizə orqanının hansı səbəbdən narkotik alverinin qarşısını almaqda ”uğursuzluğa düçar olması”, yaxud buna tərəflər arasında hansı rüşvət amillərinin səbəb olduğu üzə çıxarılsın. Niyə ərazilərdə az narkotikin müsadirə olunmasının səbəbləri axtarılsın. Mütləq şəkildə bazarda satılan narkotiklə müsadirə edilən malların miqdarı tutuşdurulsun, məsələyə aidiyyətu qurumların yarıtmaz fəaliyyət baxımından hüquqi qiymət verilsin.

- Narkotik alverinin şıdırğı getdiyi ərazilərdə nəzarəti təmin edə bilməyən polis şöbələrinə töhmət verilsin, onlarla narkotik alverçiləri arasında hansısa maddi maraq güdülməsinin, korrupsiya əlaqəsinin olub-olmaması müəyyən edilsin. Məlumdur ki, istənilən uğursuz idarəçilikdə əsas səbəb korrupsiya və rüşvət amilidir. Hansı rayonda narkotik alveri çoxdur, niyə çoxdur, səbəb nədir, bu səhlənkarlıqdan, yoxsa maddi maraqdan qayanqlanır, bütün bunlar üzə çıxarılsın. Nəzarət etdiyi rayonda narkotk satışı güclü olan hüquq-mühafizə orqanları rəsmilərinin rütbəsi aşağı salınsın, işdən kənarlaşdırılsın və s.

- Məhəllələrdə narkotik alverinə imkan verməməsi üzərinə öhdəçilik şəklində qoyulan sakinlər (könüllülər şəklində) təyin edilsin, onların ”Narkotik əməliyyatları üçün ayrıca əlahiddə qurum”la koordinasiyalı fəaliyyəti, həmçinin qorunması təmin edilsin. Məhəllələrdə narkofonu aşağı salmaq üçün aktiv insanlar motivasiya edilsin, bu insanlar seçilmiş əməliyyatçılar tərəfindən təlimatlandırılsın, təşkilatlandırılsın, gələcək əməliyyatlarda onların informasiyalarından istifadə edilsin.

Narkotik vasitələrin istifadəsi üçün yerin təmin edilməsi də istifadəçilərin ifadələrində rast gəlinən məqamlardır. Bu da özü-özlüyündə cəza gərəkdirən cinayətdir. Nəzər alsaq ki, gecə klubları kimi əyləncə məkanları narkotik satışı üçün əlverişli yer sayıla bilər, oranın işçiləri tərəfindən həmin müəssisələrdə narkotik vasitələrin kütləvi istifadəsi və ya satışı barədə ictimai təhlükəsizlik orqanlarına məlumat verilməməsi, əksinə ”mal almaq üçün” gələn şəxslərə şərait yaratmaq da cinayət tərkibli əməllərdir. Bu baxımdan, istifadəçilərin hansısa narkomanın yaşayış yerində qrup şəklində narkotik istifadəsi də həmin ev sahibinə qarşı cinayət əməlinin qaldırılmasına səbəb sayıla bilər.

Qeyd edək ki, narkomaniyadan müalicə olunan şəxslərin öz dillərindən səsləndirilən hekayələrində narkotiki onlara kimlərsə tərəfindən təklif edilməsi, narkotiklə tanış olmayan şəxslərin ona dadandırılmasına da rast gəlinir. Çox vaxt belə şəxslər narkotik alverçilərinin yan-yörəsində olan əlaltı qismində görünürlər. Müalicə alıb sağalmış şəxslər bildirirlər ki, onlara yalnız təklif olur, amma məcburiyyət olmur. İnsan mahiyyətcə hər şey maraq göstərən varlıq olduğundan, narkotik alverçiləri öz işlərini elə bu marağı oyandırmağın üzərində qururlar. ”Bariqa”ların əlaltılarının insanlarda maraq oyandıraraq narkotikə dadandırması prosesə girişdir. Bu, narkotikin reklamı və cinayət əməli hesab olunmalıdır.

Ümid edirik ki, bu addımlar atılsa, insanlar narkotikin yayılmasına səy göstərməkdən, ondan maddi maraq güdməkdən çəkinəcəklər, gözləri qorxacaq, çünki cəzasızlıq cinayətin yayılmasına şərait yaradır.

**Hazırladı: İ. SABİRQIZI**



# İcra başçısı istefaya göndərildi, qurumun fəaliyyəti dayandı...

## Nəsimi sakinləri "başçısız qalmağın" problemini yaşayırlar

Nizami rayonu, Əliağa Kürçaylı 13/20 ünvanında yaşayan ehtiyatda olan mayor Məmmədov Mübariz Əhməd oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qarşılaşdığı problemlə əlaqədar qəzetimiz vasitəsilə səlahiyyətli qurumlara müraciət edir:

"Mən, Məmmədov Mübariz Əhməd oğlu, qeyd edim ki, 2024-cü ildə son yaş həddi ilə əlaqədar Daxili Qoşunlardan ehtiyata buraxılmışam. 2025-ci ilin yanvar ayından kirayə pulunu almaq üçün lazımi sənədləri təqdim etmişəm. Qeydiyyatda olduğum Nəsimi Rayon İcra Hakimiyyətindən indiyə qədər kirayə pulu ala bilmirəm. Səbəb olaraq bildirirlər ki, Nəsimi Rayon İcra Hakimiyyətinə hələ başçı təyin olunmayıb, onu əvəz edən şəxs isə sərəncam vermək hüququna malik deyil.

Kim vəzifədən gedir və yaxud da gəlir, bunun yükünü niyə mən çəkməliyəm?! Səlahiyyətli şəxslərdən xahiş edirəm, mənə köməklik edin".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# İcra başçısı fortepiano müəlliməsini birinci müavini təyin etdi



**Şəki şəhər İcra Hakimiyyəti başçısına yeni müavin təyin edilib. "Banker.az" xəbər verir ki, RİH başçısı Elxan Usubovun əmri ilə Xəyalə Töhrablı Töhrab qızı başçısının birinci müavini təyin edilib.**

Bununla da başçının müavinlərinin sayı ikiyə yüksəlib. Bununla belə, başçının I müavini vəzifəsi hələ ki, vakantdır.

Töhrablı Xəyalə Töhrab qızı Şəki şəhər Uşaq İncəsənət məktəbinə Tədris işləri üzrə direktor müavini vəzifəsində çalışırdı. Xəyalə Töhrablı 9 fevral 1986-cı ildə Şəki şəhərində anadan olub.

2000-2004-cü illərdə Şəki Musiqi texnikumunu fortepiano ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib.

2004-2008-ci illərdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını fortepiano ixtisası üzrə bitirib.

2013-2015-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində İnstrumental ifaçılıq, instrumental ifaçılığın tarixi nəzəriyyəsi və metodikası ixtisası üzrə magistr elmi dərəcəsi almışdır.

2015-2019-cu illərdə Bakı Musiqi Akademiyasında Dissertant (Sənətşünaslıq üzrə) olmuşdur.

2006-cı ildən 2024-cü ilə qədər Şəki Musiqi Texnikumunda müəllim vəzifəsində çalışıb.

# Bakının mərkəzində daha bir qanunsuz söküntü

## Xuraman Nağıyevaya məxsus obyekti sökdülər, içindəki əşyaları oğurladılar...

**Bakının Yasamal rayonunda baş verən qalmaqallı söküntüdən sonra paytaxtın mərkəzində daha bir mənzil qanunsuz olaraq dağıdılıb. Söhbət Xətai rayonu, Sergey Senyuşkin 34 ünvanında yerləşən mənzilin sahibindən icazəsi sökülməsindən gedir. Ev sahibi deyir ki, xəbəri olmadan ona məxsus qeyri-yaşayış sahəsi bir neçə saatın içində elə dağıdılıb k, daş daş üstündə qalmayıb, hətta içindəki əşyalar da bütünlüklə yoxa çıxıb.**



Bu haqda "Hürriyyət" qəzetinə müraciət edən Bakı sakini, hazırda Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, ev 41, mənzil 3-də kirayədə yaşayan Musayeva Gülgəz Yunis qızı deyir ki, sözügedən mənzil qızı Xuraman Nağıyevaya məxsus olub. Onun sözlərinə görə, qanuni şəkildə qeyri-yaşayış sahəsi kimi istifadə olunan mənzili birbaşa Bakı Şəhər İcra Hakimiyyətinin Nəzarət-təftiş şöbəsinin müdiri Zülfəli İsmayılov göstərişi ilə yerlə-yeksan edilib. G.Musyayeva başına gələnləri əməkdaşımıza danışıb:

"Qeyd edim ki, 2018-ci ildə Xətai rayonu, Sergey Senyuşkin 34 ünvanında olan 1 otaqlı 24.08 kv olan həyət evini qızıma almışdım. Sonradan maddi vəziyyətim çətin olduğuna görə, həmin evi obyektlə əvəzləyib, özüm kirayədə yaşamışam.

Bu yaxınlarda həmin ünvanda söküntü işləri aparılıb. Bundan əvvəl Bakı Şəhər İcra Hakimiyyətinin Nəzarət-təftiş şöbəsinin müdiri Zülfəli İsmayılov məni çağırıb bildirdi ki, ərazidə söküntü olacaq, mənzillərin hər kv.metrinə 2700 manatdan ödəniş ediləcək. Mən buna razılıq vermədim. Çünki həmin ərazidəki fərdi yaşayış evlərinə də həmin məbləğ təklif olunmuşdu. Mənim evim isə qeyri-yaşayış sahəsi kimi sənədləşdirilib və sökülən tarixədək qanuni şəkildə icarədə idi.

Mən təklif olunan məbləğlə razılaşmadığım üçün Zülfəli İsmayılov dedi ki, "sən razı olsan da, olmasan da mən həmin ünvanı uçurdacam. Heç yerə getmədən, kimsəyə şikayət etmədən razılaş". Hətta onu da əlavə etdi ki, harasa şikayət etsən, sənə 1 qəpik belə verməyəcəm.

Bu zaman dedim ki, gedib evimdə yaşayacam, içərisində də əşyalarım var. Yenə dedi ki, "sən evdə ola-ola sökub, səni də içində öldürəcəm".

Ərazidə söküntü başlayandan sonra kirayəyə verdiyim şəxslər çıxdı, ev boş qaldı. Mən arada imkan tapdıqca gedib evimə baxırdım. Təxminən 1 həftə qabaq yenə gedib evimə baş çəkəndə gördüm ki, yerlə-yeksan edilib, evdə daş daş üstündə qalmayıb. Hətta içərisində olan əşyalarım da yox idi. Hansı ki, söküntüdən əvvəl evin içərisində soyuducu, televizor, çarpayı, divan və s. əşyalarım var idi.

## "Zülfəli İsmayılov dedi ki, içəridə ola-ola evini sökəcəm, səni də içində öldürəcəm"



AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ
Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən

ÇIXARIŞ

| | |
|---|---|
| Hüququ rəsmiləşdirilən şəxs | Nağıyeva Xuraman Məhəmməd qızı |
| Daşınmaz əmlakın növü | Qeyri-yaşayış sahəsi |
| Daşınmaz əmlakın ünvanı (olduğu yer) | Bakı şəhəri, Xətai rayonu, Sergey Senyuşkin küçəsi, ev 34, 1-ci mərtəbə, qapı 3 |
| Daşınmaz əmlakın mülkiyyət növü | Xüsusi |
| Daşınmaz əmlakın üzərində hüququn növü | Mülkiyyət |
| Daşınmaz əmlakın ümumi sahəsi (kvadratmetrlə) | 22.80 |
| Torpaq sahəsinin mülkiyyət növü | - |
| Torpaq sahəsi üzərində hüququn növü | - |
| Torpaq sahəsinin kateqoriyası | - |
| Torpaq sahəsinin ölçüsü (hektarla) | - |
| Daşınmaz əmlakın reyestr nömrəsi | 010011000972-05101-083001 |

Hüquq sahibləri

| Sıra № | Hüquq sahibinin adı | Payı | Qeydiyyat nömrəsi | Qeydiyyat tarixi |
|---|---|---|---|---|
| 1 | Nağıyeva Xuraman Məhəmməd qızı | Tam | 1122044707 | 12.04.2022 |



AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ
XƏTAİ RAYONU
İCRA HAKİMİYYƏTİ
BAŞÇISININ
APARATI

Bakı şəh., Xocalı prospekti, 41 tel: 490-08-51
mail@khatai-ih.gov.az

№ 5-11/2-N-14/2-152/25 , 03.03 2025-il

Bakı şəhəri Xətai rayonu M.Hadi küçəsi ev 41, mənzil 3 ünvanında yaşayan vətəndaş Xuraman Nağıyeva

Sizin təkrar müraciətinizə Xətai Rayon İcra Hakimiyyətində baxılmışdır.

Müraciətinizdə Xətai Rayonu, S.Senyuşkin küçəsi ünvanında yerləşən sizə məxsus olan əmlakın köçürülmə ərazisinə düşdüyünü bildirərək, Sizə müvafiq köməklik göstərilməsini xahiş edirsiniz.

Məlumat üçün bildiririk ki, Bakı Şəhər İcra Hakimiyyəti Başçısının 08.05.2024-cü il tarixli, 79 saylı sərəncamı ilə Xətai Rayon İcra Hakimiyyəti Bakı şəhəri Xətai rayonu, Y.Səfərov və S.Senyuşkin küçələrinin əhatəsində yerləşən ərazidə abadlıq işlərinin aparılması üçün sözügedən ərazidə yerləşən yaşayış və qeyri-yaşayış obyektlərinin köçürülməsi məqsədi ilə Xətai Rayon İcra Hakimiyyəti Başçısının 10.05.2024-cü il tarixli, 154 saylı Sərəncamı əsasında komissiya yaradılmışdır.

Hazırda Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı əsasında Xətai Rayon İcra Hakimiyyətində yaradılmış komissiya həmin ərazidə müvafiq tədbirlərin həyata keçirilməsini təmin edir.

Bildiririk ki, rayon İcra Hakimiyyətində fəaliyyət göstərən komissiyaya yaxınlaşdığınız və razılaşma aktına imza atdığınız təqdirdə vəsait sizin bank hesabınıza köçürüləcəkdir.

Hüquq şöbəsinin müdiri Teymur Əzizov

İcra Hakimiyyətinin əməkdaşlarında əlaqə telefonlarım olsa da, evim sökülən gün mənə heç bir məlumat verilməyib.

Onu da deyim ki, 2,5 sot torpaq sahəsinin içində tikilən obyektin sahəsi 24.08 kv.metr olsa da, qeyri-yaşayış sahəsi kimi sənədləşdirilndə 22.08 kv.metr hesablamışdılar. Bundan əlavə, həyədə sanitar qovşaq və hamam var idi. Bunları da nəzər almadan, mənə cəmi 22 kvadrat metr üçün pul təklif olunurdu.

Hər kəsə bəllidir ki, həmin ərazidə obyektlərin hər kv.metrinin qiyməti 8-9 min manatdır. Onların verdiyi məbləğə isə mən heç şəhərin kənarında da evə ala bilməzdim. Bu səbəbdən təklif etdim ki, ərazidə obyektimin kvadratına uyğun yeni bir obyekt versinlər. Lakin dedilər ki, ən yaxşı halda hər kvadratına 3000 manat verə bilərik. Mən razılaşmadım və indiyədək heç bir məbləğ də almamışam.

Obyektimin qanunsuz olaraq sökülməsinə, işindəki əşyalarımın yoxa çıxarılmasına rəğmən, mən yenə də artıq heç nə istəmirəm, ya obyektimi alıb versinlər, ya da ərazidəki qiymətlərə uyğun pulumu versinlər".

Məsələ ilə bağlı Bakı Şəhəri Nəzarət-təftiş şöbəsinin müdiri Zülfəli İsmayılovla əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimizi cavabsız qoydu.

**Jalə FAMİLQIZI**

**Redskiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Hürriyyət

Aktual

SİZİN ÜÇÜN QƏZET

№14 (3353) 22 Aprel / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



Donald Tramp bütün dünyanı bir-birinə vurarkən bunun bir ucunun da Azərbaycana dəyəcəyi ehtimalı artır. Azərbaycanda isə tərcümeyi-halında kiçik də olsa Trampın "izi" olan bir sabiq məmur var - Ziya Məmmədov...



# Ziyanın yarısından qayıdan Ziya Məmmədov...

## Keçmiş nazir "ailə dostu" Trampın yadına düşəcəkmi?



Azərbaycan Dövlət Dəmir Yolunun (ADDY) keçmiş rəisi, keçmiş nəqliyyat naziri, Rusiyanın Dərbənd şəhərinin fəxri vətəndaşı, ABŞ Prezidenti Donald Trampın tanışı... 73 yaşlı Ziya Məmmədovun 1971-ci ildən başlayan əmək fəaliyyətinin ən önəmli məqamları bunlardır və burada nə qədər qəribə olsa da Trampın adı keçir...

Ziya Məmmədov 2002-ci ildən 2017-ci ilə qədər 15 il müddətində Azərbaycan ən gəlirli qurumlarından biri olan Nəqliyyat Nazirliyinə rəhbərlik edib. Maraqlıdır ki, onun vəzifədən çıxarılması ilə bağlı prezident sərəncamı belə yoxdur. Çünki 2017-ci ildə Nəqliyyat Nazirliyi ləğv edilərək rabitə sektoru ilə birləşdirildi, Ziya müəllim də təqaüdə göndərildi.

Keçmiş nazirin karyerasının 18 ili Dövlət Dəmir Yolunun Biləcəri Lokomotiv deposuna bağlıdır. Rostov Dəmir Yolu Nəqliyyatı Mühəndisləri İnstitutunu məzunu burada maşinist köməkçisindən başlayıb, rəis müavini, məntəqə rəisliyinə qədər karyera yolu keçib. Daha sonra qurumun Gəncə Lokomotiv deposunun rəisi, 1991-1993-cü illərdə isə Dəmir Yolu Lokomotiv təsərrüfatı xidmətinin rəisi vəzifəsinə yüksəlib. 1993-1996-cı illərdə ADDY rəisinin lokomotiv və vaqon təsərrüfatı üzrə müavini işləyib. Prezidentin 31 iyul 1996-cı il tarixli Sərəncamı ilə qurumun rəisi təyin edilib. Beləliklə, Ziya Məmmədovn "qızıl dövrü" bu tarixdən hesablanır.

O, qısa müddətdə məmur korpusunda var-dövləti, dəbdəbəli həyatı, səxavəti ilə fərqləndi və mətbuatın "ulduzlarından" birinə çevrildi. Bu vəifədə 6 il qaldıqdan sonra Z.Məmmədov 2002-ci ilin avqustunda Nəqliyyat naziri təyin edildi. Bu tarixdən 1 il sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşdü və Azərbaycana yavaş-yavaş böyük neft pulları daxil olmağa başladı.

2004-cü ildə Ziya Məmmədovun ilk böyük layihəsi icra olunmağa başladı: 120 kilometrlik Bakı-Ələt-Hacıqabul avtomagistralı o zamana qədər Azərbaycanda mövcud olmayan beynəlxalq standartlara uyğun şəkildə genişləndirildi və yenidən quruldu. On milyonlarla dollar vəsaitin xərcləndiyi yol, sonrakı illərdə bir neçə dəfə əsaslı təmir olunub. Hazırda onun əsas hissəsi yarasız vəziyyətdədir, yolun hər iki istiqamətdə sağ zolağı tamamilə sıradan çıxıb. Mütəxəssislər bildirirlər ki, yol keyfiyyətsiz inşa olunub, həmçinin normadan artıq yüklənmiş maşınların magistrala daxil olması infrastrukturun məhv olmasına gətirib çıxarıb.

> 2004-cü ildə Ziya Məmmədovun ilk böyük layihəsi icra olunmağa başladı: 120 kilometrlik Bakı-Ələt-Hacıqabul avtomagistralı o zamana qədər Azərbaycanda mövcud olmayan beynəlxalq standartlara uyğun şəkildə genişləndirildi və yenidən quruldu. On milyonlarla dollar vəsaitin xərcləndiyi yol, sonrakı illərdə bir neçə dəfə əsaslı təmir olunub. Hazırda onun əsas hissəsi yarasız vəziyyətdədir, yolun hər iki istiqamətdə sağ zolağı tamamilə sıradan çıxıb...

Bakı-Qazax magistralının 80 kilometrlik Hacıqabul-Kürdəmir hissəsi də Ziya Məmmədovun nazir olduğu dövrə istifadəyə verilib. Yenidənqurma layihəsinə 350 milyon manatdan artıq vəsait xərclənib. Magistralın qalan hissəsi də mərhələli şəkildə yenidən qurulub və yüz milyonlarla dövlət vəsaiti və kreditlər hesabına başa gəlib.

Bundan başqa, Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolu, Ələt-Astara dövlət sərhədi avtomobil yolu şəhərlər və rayonlar arası çoxlu sayda yol layihələri icra olunub.

Z.Məmmədovun nazir olduğu dövrdə nəqliyyat sektoru neft gəlirləndən ən böyük pay alan qurum olub. Bu sahəyə ümumilikdə 5 milyard manatdan artıq vəsait yönəldilib.

Ziya Məmmədovun 2008-ci ilin 12 mart tarixində prezidentə məruzəsində böyük pullardan bəhs olunur: "Əgər 2006-cı ildə bu məqsədlə dövlət büdcəsindən 50 milyon manat ayrılmışdısa, artıq 2007-ci ildə bu məbləğ 130 milyon manat olmuş, 2008-ci ildə isə 162 milyon manatdır. Yolların, körpülərin, keçidlərin tikilməsi, yenidən qurulması və bərpası üçün milli investisiya qoyuluşunun məbləği 2004-cü ildə 16,3 milyon manat olmuşdusa, 2007-ci ildə bu rəqəm 464 milyon manat təşkil etmiş, 2008-ci ildə isə 522 milyon manat məbləğində təsdiq olunmuşdur. Beynəlxalq maliyyə institutlarının kreditləri hesabına həyata keçirilən avtomobil yolları layihələri üzrə 2007-ci ildə 99,3 milyon dollar vəsait cəlb edilmişdir və 2008-ci ildə isə bu vəsaitin 250 milyon dollar olacağı gözlənilir. Əgər 2000-ci illərin əvvəllərində nəqliyyat layihələrinin maliyyələşdirilməsi üçün beynəlxalq maliyyə qurumları kiçik vəsaitləri belə çox ehtiyatla ayırırdılarsa, hazırda ən nüfuzlu beynəlxalq maliyyə institutları tərəfindən daha sərfəli şərtlərlə təklif olunan investisiyaların məbləği 3 milyard dollardan artıqdır..."

Milyardlıq layihələrdən alınan, çırpışdırılan "otkatlar" hesabına Z.Məmmodv 2005-ci ildə ailə üzvlərinin adlarının baş hərflərindən ibarət olan ZQAN Holdinqi təsis etdi. Oğlu Anar Məmmədov tərəfindən idarə olunan şirkətlər qrupu inşaat məhsullarının istehsalı, telekommunikasiya, sığorta, mehmanxana işi və sağlamlıq-istirahət mərkəzləri, inşaat, daşınmaz əmlak və onun idarə edilməsi, reklam xidməti, kənd təsərrüfatı məhsulları istehsalı, restoran servisi, eləcədə səyahət sahələrində fəaliyyət göstərib.

10 may 2013-cü il tarixindən etibarən ZQAN adı dəyişdirilrək "Garant Holing"lə əvəzlənib.

Holdinqin tərkibində bu şirkətlər daxil idi: "Bank of Azerbaijan", "Qarant Sığorta" ASC, "Garant İnşaat Sənaye" MMC, Garant (Ucar) Aqro ("Mərcan" toyuqları)

"Rixos Quba", Quba Olimpiya Kompleksi MMC, ZQAN Construction, "Azbentonit", Goranboy Gips ASC, Göyçay Çınqıl

TranEuroCom Telekommunikasiya, "Delfin Otel", "Meridian hoteli", ZQAN Plaza, "Kəhrəba restourants", "Royal Estate Royal Fakilities Managment" daşınmaz əmlak, "Garant Agricultur Group", KFC Azərbaycan, M.Trans MMC, "Delfin" MMC, Turbo.az MMC və s.




Məlumdur ki, bu sayda şirkətlərin yaradılması, fəaliyyəti, nəhəng gəlirlərin bilavasitə büdcədən istiqamətləndirilmiş milyonlar hesabına başa gəlib. Anar Məmmədovun biznesdə qaz vurub qazan doldurması onun fitri istedadı, qabiliyyəti ilə bağlı olmayıb. Hər halda, alın təri ilə pul qazanan iş adamları ziyafətlərdə, eyşi-işrət məclislərində milyonları havaya sovurması ilə gündəmə gəlmirlər...

Ziya Məmmədovun biznes imperiyasının aqibəti də digər məmur həmkarlarından fərqli olmadı. Vəzifədən çıxarıldıqdan qısa müddət sonra şirkətlər bir-brinin ardınca bağlandı, yaxud əl dəyişdirdi. Onun topdağıtmaz sərvətinin əhəmiyyətli hissəsi əlindən çıxdı, yalnız oğlu vasitəsi ilə xaricə çıxara bildiyi, Londonda, başqa Avropa paytaxtlarında daşınmaz əmlaka, səhmlərə, biznesə yatırılan milyonlar ona qaldı. Hazırda uzun illərdir ayağı Azərbaycana dəyməyən Anar Məmmədov Britaniyada, ABŞ-də bu vəsaitlər hesabına iş adamı titulu daşıyır.

ABŞ-də Donald Trampın hakimiyyətə qayıtması Məmmədovlar üçün düşərli hadisə sayılır. Çünki o, nazir olduğu dönəmlərdə Trampın franşizini alıb Bakıda onun adına otel inşa etməyə, onunla münasibətlər qurmağa nail olmuşdu. Bu səbəbdən Anar Məmmədov 2016-cı ilin yanvarında Trampın inauqurasiyasına da dəvət almışdı. Amma cəmi 1 il sonra Z.Məmmədovun rəhbərlik etdiyi nazirliyin vəzifəsi ilə birlikdə ləğv edilməsi onun ulduzunun parlamasına imkan vermədi. Özü ilə biznesi də tarixin arxivinə getdi. İndi Ziya Məmmədovun və oğlunun dünya iqtisadiyyatını biri-birinə vuran Trampın yadına düşməsi qətiyyən inandırıcı deyil...

Ziya Məmmədov hazırda gününün çox hissəsini doğulduğu Ucar rayonunun Qızılqumlaq kəndindəki villasında keçirir, ibadətlə məşğul olur, ara-sıra insanları halallığa, dürüstlüyə, mənəvi saflığa çağırır. Büdcədən oğurlanmış pullar hesabına tikilmiş villada oturub bu cür "ağsaqqallıq" etmək mənəvi dəyərlərə, dinə, əxlaqa nə dərəcədə uyğundur?Bunu sabiq nazir özü daha yaxşı bilər yəqin ki...

Ancaq hər halda, varidatının əhəmiyyətli hissəsini qoruya bilən Ziya müəllim ziyanın yarısından qayıtmış kimi görünür. Görək, bir zamanlar ona "körpüdən keçəndə..." məsələndəki qədər yaxın olan və hazırda dünyanı qarışdıran "dostu" Tramp da ziyanın yarısından qayıda biləcəkmi?

**Rasim ƏLİYEV**

Sumqayıt şəhər sakini Məmmədkərimov İlkin İlqar oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Müəyyən şirkətlərin istehlakçıları aldatdığını bildirən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:




"Təsadüfi deyil ki, indi həkimlər də müalicə üçün xəstələrə dərman yazmaqda çətinlik çəkirlər. Çünki əksər dərmanların keyfiyyətsiz olduğunu bilirlər..."

# Azərbaycanda "brend mallar" adı altında keyfiyyətsiz məhsullar satılır

## Heç bir qurum istehlakçıların aldadılması ilə bağlı məsuliyyəti öz üzərinə götürmək istəmir

"Mən, Məmmədkərimov İlkin İlqar oğlu, yazaraq bildirim ki, sizə müraciətim qida, gigiyena və təmizlik məhsulları, eləcə də dərmanların keyfiyyəti ilə bağlıdır.

Bildiyiniz kimi, Rusiya-Ukrayna müharibəsindən sonra Qərbə məxsus bir çox brend Rusiyadakı fəaliyyətini dayandırdı. Belə ki, əksər şirkətlər bu ölkədəki aktivlərini satdı və Rusiya bazarını tərk etdiyini açıqladı. Həmin vaxtadək Azərbaycana qida, şəxsi gigiyena və təmizlik məhsulları və dərmanlar əsasən Rusiyadan gəlirdi. Rusiya-Ukrayna müharibəsindən sonra qlobal brendlərin Rusiya zavodu bağlandığı üçün ölkəmizə Türkiyə və Asiya ölkələri istehsalı olan markalar gəlməyə başladı. Şübhəsiz, bunların da Rusiya və Qərb ölkələrinin istihsel etdiyi məhsullara nisbətən keyfiyyəti aşağıdır. Yəni biz eyni qiymətə bərbad keyfiyyətli markalar almağa başladıq.

Qərb ölkələri istehsalı olan markalar da müharibə səbəbindən daşınma xərclərinin həddən artıq yüksəldiyini əsas gətirərək, ölkəmizə Türkiyə və Asiya ölkələrində istehsal olunan məhsulları gətirməyə başladılar. Məsələn, illərdir Belçika istehsalı olan "Nutricia" brendinin "Aktivia" və "Danone" yoqurtları gəlirdisə, müharibədən sonra Moldova istehsalı olan məhsullar gəlməyə başladı ki, onların da keyfiyyəti aşağı, qiyməti isə yüksəkdir.

Şəxsi gigiyena və təmizlik məhsullarından da nümunə gətirə bilərəm. Məsələn, illərdir Rusiya və Avropa ölkələrində istehsal olunan "P&G" brendinin əksər markaları son 3 ildir ki, Türkiyə və Asiya ölkələrinin məhsulları ilə əvəz olunub. Misal olaraq, əvvəllər Çexiya istehsalı olan "Ariel" yuyucu toz markası gəlirdisə, artıq Türkiyə istehsalı olan mallar gəlir. Eynilə, əvvəllər Belarus istehsalı olan "Fairy" qab şampunu markası gəlirdisə, hazırda Türkiyə istehsalı olan məhsullar gəlir. "Comet" markası isə tamamilə yığışdırılıb.

Əvvəllər Almaniya istehsalı olan ağız baxım markası "Blend-a-med" gəlirdisə, indi onun yerinə Türkiyə bazarı üçün istehsal olunan "Oral-B" diş məcunları gəlir ki, keyfiyyəti bərbaddır. Həmçinin, əvvəllər ölkəmizə İrlandiya istehsalı olan "Oral-B" diş fırçaları gəlirdisə, indi isə Çin malları gəlir. "Unilever" brendi də illərdir Rusiya və Avropa ölkələrində istehsal olunur və otradan ölkəmizə gətirilirdisə, indi "Clear", "Domestos", "Rexona", "Dove", "Camay", "Lisnoy Balzam", "Çistaya Linya" və s. markaları artıq Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Qazaxıstan, Filippin və s. ölkələrdən gətirilir. "Henkel", "Johnson & Johnson", "Reckitt Benckiser" və digər brendlərdə də vəziyyət eynidir.

Dərman vasitələrinə gəldikdə isə, burda da oxşar vəziyyətdir. Məsələn, qrip və soydəyməyə qarşı olan "Johnson & Johnson" brendinə məxsus "Rinza" markası artıq Hindistandan gətirilir, keyfiyyəti isə bərbad vəziyyətdədir. Ürək xəstələri üçün, əsasən yaşlı insanların illərdir qəbul etdiyi "Stada" brendinə məxsus "Kardio Maqnil" dərmanı əvvəllər Almaniyadan gəlirdisə, indi isə Rusiya istehsalı gətirilir.



Ümumiyyətlə, "GSK", "Bayer", "Sanofi" və Qərb ölkələrinə məxsus digər dərman brendlərinin məhsulları məqsədli şəkildə yoxa çıxarılır, əvəzində isə Türkiyənin "Nobel İlaç", "Vəfa İlaç" və s. dərman şirkətlərinin ucuz başa gələn mallar gətirilir, üstəlik də daha baha qiymətə satılır. Məsələn, bakteriyalara qarşı olan "GSK" brendinə məxsus "Zinnat" dərmanı, yaxud Portuqaliya istehsalı olan "Atral" brendinin "NeoChef" dərmanı illərdir satışda yoxdur, bu dərmanların yerinə bakteriyalara qarşı Türkiyənin "Nobel İlaç" şirkətinin "Meqaçet" dərmanı aptekləre doldurulub ki, onun da keyfiyyəti bərbaddır.

İllərdir Rusiya, Belarus və Ukraynada istehsal olunan "Natrium xlor" sistemi artıq Türkiyədə istehsal olunur. Təsadüfi deyil ki, indi həkimlər də müalicə üçün xəstələrə dərman yazmaqda çətinlik çəkirlər. Çünki əksər dərmanların keyfiyyətsiz olduğunu bilirlər".

Maraqlıdır ki, bütün bunlarla bağlı Səhiyyə Nazirliyinin "qaynar xətt"inə şikayət edildildikdə, "Biz sadəcə dərmanların təhlükəsizliyini yoxlayıb, uyğunluq sertfikatı veririk. Dərmanları ölkəyə tədarükçülər gətirir, hansı dərmanı gətirməkdə isə tədarükçülər sərbəstdirlər", - deyə cavab verilib.

Xatırladaq ki, bu yaxınlarda astma xəstələri də illərdir aldıqları Avropa istehsalı olan dərmanların tapılmadığını, əvəzində isə baha qiymətə Türkiyə istehsalı dərmanları aldıqlarını, onların da keyfiyyətsiz olduğu haqda mətbuata şikayət etmişdilər. Məsələ ilə bağlı TƏBİB-dən telekanalın sorğusuna cavab olaraq bildirmişdilər ki, TƏBİB ölkəyə dərman idxalı ilə məşğul olmur.

Məsələnin kökündə isə o dayanır ki, bütün dünyadan fərqli olaraq, bizim ölkədə qanunla qlobal brendlərin üzərinə keyfiyyət öhdəliyi, ölkədə mütləq nümayəndəliyin olması ilə bağlı tələb qoyulmur. Bir çox qlobal brendin ölkədə nümayəndəliyi yoxdur, olanların da nümayəndəliyinin harda olduğunu, əlaqə nömrəsini heç kəs bilmir. Bir sözlə, ölkədə qlobal brendlərin markalarının keyfiyyətinə cavabdeh qurum olmadığı üçün istehlakçıya bahalı brendlərin məhsulları adı altında keyfiyyətsiz mallar sırınır.

**Jalə FAMİLQIZI**

# "Bizi səbəbsiz yerə işdən çıxardılar"

## "Azəriqaz"ın 45 əməkdaşı qurumun rəhbərliyindən şikayətçidir




**"Azəriqaz" İstehsalat Birliyinin Qəbələ rayonu Qaz İdarəsinin işçiləri - Alcanov Xəqani Nizami oğlu, Umarov Nurlan Tərlan oğlu, Tahirov Tahir Gülalı oğlu, Hacıyev Rüstəm Səxavət oğlu, Əfəndiyev Anar Elxan oğlu, Məsimov Nazim Əliağa oğlu və Əsədov Elşad Firudin oğlu tərəfindən redaksiyamıza şikayət məktubu daxil olub. Şikayətçilər qurumun rəhbərliyindən narazılıq edirlər:**

**"Hörmətli redaksiya!**

Yazaraq sizdən xahiş edirik ki, problemimizi işıqlandırasınız.

Bildirək ki, 2016-cı ildən Məşğulluq Ağentliyi tərəfindən "Azəriqaz" İstehsalat Birliyində iş ilə təmin olunmuşuq. İşə daxil olan zaman 45 nəfər idik. Həmin 45 nəfəri səbəbsiz yerə, "müqavilə bitib" deyə işdən azad etdilər. Mən, Alcanov Xəqani Nizami oğlu 9 ildir orada işləyirdim. İndi dərdimizi kimə, hansı quruma desək də, bizi anlayan yoxdur. Hər birimizin ailəsi, uşağı var. Başqa gəlir yerimiz yoxdur.

Sizin sayt vasitəsilə səlahiyyətli qurumlardan xahiş edirik kli, bu haqsızlığa son qoyulması üçün bizə kömək etsinlər".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Nazir Rəşad Nəbiyev tapşırıq verdi, işçiləri əməl etmədi



## "Dedi ki, istəyirsən Prezidentə yox, lap Səddam Hüseynə şikayət et..."

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İnfrastrktur Departamentinin böyük mexaniki Eldar Güləliyev tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Rəhbərlikdən şikayətçi olan E.Güləliyevin məktubunu olduğu kimi dərc edirik:**

"Diqqətinizə çatdırım ki, mən "Azərbaycan Dəmir Yolları" QSC-nin İnfrastrktur Departamentinin 1 nömrəli işarəvermə və rabitə sahəsinin XAZ sexinin böyük mexaniki işləyirdim. Tərəfimdən istifadə olunması üçün mühafizə olunan dəmir yolu keçidi üçün 900 metr kabel lazım idi. Bu barədə idarənin rəisi Elxan İsmayılova müraciət etdim. O bildirdi ki, kabel yoxdur. Halbuki idarə dövlətimiz tərəfindən izolyasiya olunmuş külli miqdarda qiyməti olan kabellərlə təmin olunub.

İnsanların həyatı təhlükədə olduğu üçün, məcbur qalıb, bu barədə ölkə başçısına şikayət ünvanladım. Bundan sonra Elxan İsmayılov məni kabellərlə təmin etdi. Lakin iclasda dedi ki, "nə olsun Prezidentə şikayət etmisən, istəyirsən lap Səddam Hüseynə şikayət et, burda qanun mənəm...". Bundan sonra şikayət etdiyim üçün məni işdən azad etdilər. Üstəlik, mənə düşən əmək haqqımın 5 misli miqdarında kompensasiyanı da vermədilər.

Bununla əlaqədar müraciət etdikdə, İnsan Resursları şöbəsinin əməkdaşları Sevinc Məmmədova və Nahid Bədirov mənə dedilər ki, get hara istəyirən şikayət et, sənə kompensasiya verilməyəcək.

Hətta 2 ay ərzində mənim əmək kitabçamı da qaytarmadılar. Halbuki, əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əməkhaqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir. Lakin Sevinc Məmmədovanın bu sahədə savadı çatmadığı üçün və ya digər səbəblərdən əmri təqdim etmiş, lakin əmək kitabçasını 2 ay təqdim etməmişdir. Mən Əmək Müfəttişliyinə şikayət etdikdən sonra əmək kitabçam qaytarıldı.

Bildirim ki, 42 il iş stajı olan dəmiryolçulayam, işim daimi olsa da, məcburiyyət qarşısında mənə müddətli müqavilə imzalatdırmışdılar. Və işəgötürən Elxan İsmayılovun yaxın dostu Qəzənfər Abduləzimov bundan sui-istifadə edərək, mənim müqaviləmə xitam verdi.

31.01.2025-ci il tarixində Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyevin qəbuluna getdim, ona hər şeyi izah etdim. Cənab nazir mənə bildirdi ki, sizin kompensasiyanız ödəniləcək və bu iş nazirliyin insan resursları şöbəsinin rəisi Renat Rüstəmova tapşırıldı. Həmin şəxs mənimlə əlaqə saxlayıb soruşdu ki, sizə nə qədər pul ödənilməlidir? Mən də dedim ki, əmək haqqımın 5 misli, yəni 5000 manat. Dedi yaxşı, Elxanla danışaram. 2 gündən sonra isə mən ondan məktub aldım. Məktubda qeyd olunurdu ki, bunun bizə aidiyyatı yoxdur, get məhkəməyə müraciət et(Həmin məktubu da sizə təqdim edirəm).

Mən ona zəng edib soruşdum ki, bu nə məktubdu mənə göndərmisiz, bəyəm nazir bilmir bunun kimə aidiyyatı var, axı o, mənə camaatın içində söz verdi ki, pulun ödəniləcək. Renat Rüstəmov dedi ki, o məktubu ele-belə göndərmişəm, sənin pulun ödəniləcək.

Qeyd edim ki, 03.02.2025-ci il tarixində Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədovun qəbulunda da olmuşam. O da mənə söz verdi ki, 42 il stajlı dəmiryolçu olduğun üçün biz tərəfədən sənə 1000 manat ödəniləcək. Deyildiyi kimi, mənə 1000 mənə ödənildi və bildirildi ki, bu, sırf AHİK tərəfindən ödənilir və nazirin vəd etdiyi 5 misli əməkhaqqı ilə əlaqəsi yoxdur.

Sonradan Renat Rüstəmov AHİK-dən verilən pula şərik çıxmaq istədi. Zəng edib məndən soruşdu ki, nə oldu ,sənə pul ödənildi? Dedim, o pul 1000 manatdır, AHİK tərəfindən ödənilib, onun sizə aidiyyatı yoxdur. Dedi ki, yox, əslində sənə heç o da düşmür, müraciət etmisən deyə sənə onu veriblər. Dedim ki, nazir özü mənə söz verib, siz adi işçisiniz, necə qərar verə bilərsiniz ? Həm də əgər mənə pul düşmürdüsə, göndərdiyiniz məktubda elə yazardınız da, niyə yazırsınız ki, bizə aidiyyatı yoxdur?! Həm də əgər qanunla mənə o pul düşmürsə, bəs 1000 manat niyə verilib?! O, sualıma cavab verə bilmədi. Ondan sonra mənim zənglərimi də cavabsız qoydu. Görünür, nazirin sözünə əhəmiyyət verən yoxdur, onun tapşırıqları yerinə yetirilmir. Bu səbəbdən, istəyirəm məsələni işıqlandırım ki, söhbət cənab Rəşad Nəbiyevə çatsın. O, nə cür işçiləri olduğunu görsün".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini verməyə hazırıq.**

# Bəzi hərbçilər niyə veteranlıqdan məhrum edilib?

## Hərbi Hava Qüvvələri texniki heyətinin hərbi qulluqçuları onlara veteran statusu verilməməsindən şikayətçidirlər

**Müdafiə Nazirliyi Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin texniki heyətində xidmət edən bir qrup hərbçi tərəfindən redaksiyamıza şikayət məktubu daxil olub. Şikayətçilər 44 günlük Qarabağ savaşından 5 il keçməsinə baxmayaraq, hələ də texniki heyətin hərbi qulluqçularına veteran statusu verilməməsinə etiraz edirlər. Onların müraciətini olduğu kimi dərc edirik:**



"Sizə yazan Kürdəmir rayonu, N saylı hərbi hissənin Hərbi Hava Qüvvələrinin Su-25 tipli döyüş təyyarələrinin texniki heyətində xidmət edən hərbçilərdir. Artıq 44 günlük Vətən Müharibəsindən 5 il keçir. Hələ də texniki heyətin hərbi qulluqçularının veteranlıq məsələsi həllini tapmayıb. Hətta, bildiyimiz qədər, bizim veteranlıqla bağlı işimizə xitam verilib.

Necə olur ki, döyüşlərdə birlikdə iştirak etdiyimiz pilotlarımız veteranlıq aldı, amma ixtisasımız üzrə döyüş tapşırıqlarını layiqincə yerinə yetirən, döyüş təyyarələrini uğurla, problemsiz döyüşə hazırlayan texniki heyət veteran statusu ala bilməyib?!

Hərbi hissəmiz döyüş əmrlərini 44 gün müddətində yerinə yetirən hərbi hissələrdən biridir. Buna bütün rəhbərlik şahiddir. Hətta hər kəs texniki heyətin qəhramancasına düzgün xidmətinə də şahiddir. Bizim döyüşdə fəaliyyətimizlə bağlı telekanallar verliş də hazırlayıb, tamaşaçılarına təqdim etmişdir.

Məsələ 80 manatın verilməsində deyil, bizlər də dövlətimizin qayğısından, verdiyi qiymətindən yararlanmaq istəyirik. Amma çox təəssüf ki, bizi bu addan məhrum ediblər.

Bir neçə il əvvəl adımız sistemdə veteran statusunda göründü, amma müəmmalı şəkildə bir günün içində texniki heyətin veteranlığını ləğv etdilər. Nə zaman rəhbərlikdən məlumat almaq istəsək, "hələ araşdırma gedir, yaxşı olacaq" deyirlər.

Amma "yaxşı olduğunu" bizim işimizə xitam verib, tamamilə sənədlərimizi geri göndərməklə ildirdilər.

Sizdən xahiş edirik ki, bu məsələni geniş araşdırın və işıqlandırın".

**KƏNAN**

**Redaksiyadan: Mövzunu diqqətdə saxlayacağıq. Aidiyyəti qurumların mövqeyini də dərc etməyə hazırıq.**

# İcra başçısı birinci müavinini dəyişdirdi

**Bakı Şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti başçısının birinci müavini dəyişdirilib. Banker.az xəbər verir ki, Sabunçu RİH başçısının əmri ilə indiyə qədər müavin kimi çalışan 39 yaşlı Həsənli Elşən Nazim oğlu I müavin təyin edilib. Buna qədər I müavin Məmmədov Güloğlan Məmməd oğlu idi.**

Həsənli Elşən Nazim oğlu 1986-cı ildə Yevlax şəhərində anadan olub.



2006-cı ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İnzibati idarəetmə" ixtisası üzrə bakalavriatura səviyyəsini, 2019-cu ildə isə Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması" üzrə magistratura səviyyəsini bitirib.

2012-2014-cü illərdə Bakı şəhəri, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı aparatında baş məsləhətçi vəzifəsində çalışıb.

2014-2022-ci illərdə Bakı şəhəri, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı aparatında Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsində çalışıb.

2022-ci ilin dekabr ayında Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsinə təyin edilib.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

# "Bu cür cinayətlərin sayı çoxdur..."

**Narkotik ticarətinə qarşı mübarizənin əsas hədəflərindən biri - bu şəbəkənin hərəkətverici çarxlarından olan narkodilerlərin - "ağ ölüm" satanların "aradan qaldırılması"-dır. Düzdür, bundan da vacib məsələ narkoticarətin başında duran şəxslərin həbs edilməsidir. Amma madam ki, hazırda buna gücümüz çatmır, yaxud hansısa səbəblərdən onlar "əlçatan" deyillər, ən azı bu çirkli alverin "ortabab vintləri"nin təmizlənməsinə çalışmaq olar.**



## Əlibaba Rzayev: "Adam nə içki içəndir, nə siqaret çəkəndir, guya, üzərində narkotik vasitə aşkarlanıb..."

Əlbəttə, Azərbaycanda indiyə qədər keçirilən narkotik əməliyyatları zamanı xeyli sayda "bariqa" dəmir barmaqlıqlar arasına salınıb. Lakin nədənsə bu vəziyyət narkotik alverini "söndürmür", əksinə, ölkəmizdə narkobiznes getdikcə "çiçəklənir". Halbuki, sadə məntiqlə bunun əksi müşahidə olunmalı idi. Belə deyilsə, demək, həbsə atılan "bariqa"lar ya içəridə islah olunmurlar, müəyyən yollarla qısa müddətdə azadlığa qovuşub yenidən öz qanunsuz əməllərini davam etdirirlər, ya da narkotacir adı altında qoluna qandal vurulanlar bu biznesin əhəmiyyətsiz fiqurlarıdır. Hətta bəzi hallarda günahsız insanların da "narkotik alverçisi" adı altında zindana atıldığı iddia olunurg

Bir daha o məsələyə qayıdırıq ki, ölkədə narkotik vasitələrin ticarəti dayanmırsa, deməli, onun çarxları olan alverçilər içəridə deyil, çöldədir. Bəs, necə olur ki, əsl "bariqa"lar həbsdən yayına bilir və tam təhlükəsiz bir şəraitdə şıdırğı alverlərini davam etdirirlər? Onları himayə edənlər kimlərdir?

Bu və digər suallara tanınmış vəkil Əlibaba Rzayevlə müsahibəmizdə cavab tapmağa çalışdıq.

***- Əlibaba müəllim, narkotiklə bağlı saxlanılanların içərisində qurama ittihamlarla həbsə atılanların olduğu haqda iddialar var. Sizcə, belə hallar mövcuddursa, onların qarşısını necə almaq və ümumiyyətlə, bu sahədə şəffaflığa nail olmaq üçün qanunvericllikdə hansı yenilikləri etmək olar?***

- Əsasən qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsinə ehtiyac var. Xüsusilə o məqamda ki, əməliyyatçılar başqa bir cinayətlə bağlı gəlirlər, amma əllərində tutarlı əsasları yoxdur, şəxsi saxlayırlar, sonra aktlaşdırırlar ki, guya onun üzərindən narkotik vasitə aşkarlanıb. Bununla cinayət işi açır, sonra əsas hədəfə getməyə başlayırlar. Ki, hansı səbəblə onu saxlamaq, məsuliyyətə cəlb etmək istəyirdilər. Bax, belə hallar, faktlar mövcuddur.

## "Bəzən hansısa şəxsi narkotiklə əlaqədar saxlayan əməliyyatçılar məhkəmədə suallara cavab verə bilmirlər"

Yəni əməliyyatçılar şəxsi saxlayırlar, sonra guya aktlaşdırdılar ki, axtarış etdilər, üzərindən narkotk vasitə çıxdı. Bunu da sonradan sübut etmək bir az çətin olur. Düzdür, müəyyən sorğu-suallarla hiss edirsən ki, məsələ şübhəlidir. Həmin əməliyyatçılar məhkəmədə gəlib ifadə verəndə görürsünüz ki, suallara cavab verə bilmirlər və yaxud cavablarında ziddiyyətlər olur. Nəticədə, hiss edirsən ki, doğrudan da bu yalan, qurama bir şeydir.

Bəzən də elə adam olur ki, ümumiyyətlə, heç siqaret çəkmir, amma üzərindən narkotik aşkar edirlər. Yəni adam nə içki içəndir, nə siqaret çəkəndir, amma onun üzərində guya narkotik vasitə aşkarlanıbg Biz təcrübədə belə hallarla çox rastlaşmışıq. Ona görə, bununa bağlı qanunvericiliyin bir az təkmilləşdirilməsinə ehtiyac var.

***- Sizcə, nə kimi təkmilləşdirmələr etmək olar?***

- Məsələn, qanunvericilikdə belədir ki, baxış keçirilməsi üçün hal şahidlərindən, yaxud görüntülərdən istifadə olunmalıdır. Dəqiq bir qayda qoyulmalıdır ki, səxsi harada saxlayırlarsa, mütləq orada onun üzərinə baxış keçirməlisən. Əgər sənə hansısa bir etibarlı mənbədən məlumat daxil olubsa ki, kimsə qanunsuz narkotik dövriyyəsi ilə məşğuldur, bu əməliyyat tapşırığı üzrə gedirsən, şəxsi harada saxlayırsansa, orada onun üzərinə baxış keçirməlisən və baxışı videogörüntülərlə keçirməlisən. Amma bunlar adamı küçədə qandallayırlar, aparırlar polis idarəsinə, orada bir neçə saat saxlayırlar, danışdırırlar, qərara gəlirlər ki, hə, bunun üzərindən narkotik vasitə çıxmalıdır. Ondan sonra polis idarəsinin binasında bunu sənədləşdirirlər, telefonla, yaxud kamera ilə videogörüntüyə alırlar. Yəni polis idarəsinə gedəndən bir neçə saat sonra bunu həyata keçirirlər, hansı ki, orada şəxs köməksiz vəziyyətdədir, nəzrət altındadır, orada onlara təzyiq imkanları var. Yəni orada sənədləri saxtalaşdırma imkanları genişdir. Amma dəqiq belə qayda qoyulsa ki, şəxsin mütləq saxlandığı yerdə üzərinə baxış keçirilməlidir, videogörüntülər alınmalıdır, bax, bu qayda əksər belə cinayətlərin, bu cür pozuntuların qarşısını almağa imkan verər.

## "Əməliyyatçılar şəxsi harada saxlayırlarsa, mütləq orada da üzərinə videogörüntülü baxış keçirməlidirlər"

**- Bəs, sizə, əməliyyatçıları belə hərəkətlər etməyə vadar edən nədir?**

- Onu demək olmur. Yalnız onu deyə bilərəm ki, bu cür cinayətlərin sayı çoxdur. Bizim müştərilərimiz var, açıq şəkildə deyir ki, mən narkotik vasitənin nə olduğunu belə bilmirəm, tanımıram, amma mənim üzərimdən heroin, metamfetamin çıxarıblar, mən bunların heç adlarını bilmirəm. Çox təəssüf ki, bu cür cinayət işlərinin sayı çoxdur. Bilmirəm məqsəd nədir. Məsələn, bu yaxınlarda mənim icraatımda bir iş olmuşdu - başqa hər hansı bir cinayət əməlinin törədilməsi ilə əlaqədar olaraq həmin cinayət əməlinin sanksiyası, yəni cəzası aşağı olduğuna görə, şəxsin barəsində həbs qəti imkan tədbirinin seçilməsi mümkün deyildi. Ona görə də bunlar qabaqcadan planlı şəkildə həmin şəxsi, daha doğrusu bir neçə şəxsi narkotik vasitə ilə günahlandırmışdılar ki, həbs qəti imkan tədbiri seçməyə imkanları olsun. Həbs qəti imkan tədbiri seçəndən sonra artıq orada digər məsələləri həll edə bilirlər. Yəni belə niyyət də var. Sonra, ümumiyyətlə, narkotik vasitə ilə bağlı cinayət hadisəsilə əlaqəsi olmayan məsələlər olur, hansı ki, çox hallarda narkotik vasitə aşkar edirlər. Amma bunun səbəbini konkret şəkildə deyə bilmirəm. Özü də bir deyil, iki deyil, bu hadisələri daim müşahidə edirik, görürük, eşidirik. Hər gün çox sayda belə qanunsuz cinayət işlərinin açılması halları olur.

**- Ümumiyyətlə, narkotiklə bağlı həbslərdə qəsdən şərlənmə halları neçə faiz olur və burada "bariqa"ların əli olurmu?**

- Əlbəttə, olur. Düzdür, bu cür "bariqa"lar rol oynayır, amma onlardan daha çox başqa məqsədlər üçün istifadə edirlər. Məsələ orasındadır ki, əməliyyatçılar əsasən özləri, konkret müxtəlif səbəblərdən, ola bilər, tanıdığı, bildiyi adamları şərləyirlər. Bunun arxasında hansı məqsədin dayandığını mən bilmirəm. Bilirlər ki, bu adam imkanlı ola bilər, yaxud da hansısa mövqeyi ola bilər... Bunu qabaqcadan planlı şəkildə edirlər. Bu məqsəd üçün "bariqa"lardan da istifadə edə bilərlər. "Bariqa"lar deyə bilərər ki, belə adamlar var, şübhəlidir, bu işlərlə məşğuldurlar, qanunsuz olaraq gedib o şəxsi saxlaya bilərlər. Sonra müəyyən oluna bilər ki, o adamların üzərində ümumiyyətlə narkotik vasitə yoxdur, bu işlə məşğul olan adam deyillər. Onlar da öz qanunsuz hərəkətlərini pərdələmək üçün yenidən bu şəxsi şərləyə bilərlər ki, guya üzərindən narkotik vasitə aşkar olunub. Yəni səbəblər müxtəlifdir, amma onunla bağlı konkret bir söz demək olmur.

**Hazırladı: İ.SABİRQIZI**

# Bu həftə Ukraynada savaş başa çatır?

## Uitkoff Putinlə görüşə gedir, Kiyevdən cavab gözlənilir...

**ABŞ administrasiyası artıq bu həftə ya Ukraynada tam atəşkəsə nail olmaq, ya da "əllərini yuyub", bu mövzudan uzaqlaşmaq niyyətindədir. Hər halda, Donald Tramp və ətrafının verdiyi son bəyanatlar, bu həftə ərzində keçiriləcək vacib görüşlər və Qərb mətbuatının yazdıqları belə bir qənaətə gəlməyə əsas verir.**



"Wall Street Journal"-ın yazdığına görə, ABŞ Prezidentinin xüsusi elçisi Stiven Uitkoff bu həftə Londonda Ukrayna hökumətinin nümayəndələrinin də iştirak edəcəyi danışıqlardan sonra yenidən Rusiyaya, Putinlə görüşə gedəcək.

Londonda keçiriləcək görüşdə Uitkoffdan başqa ABŞ Dövlət katibi Marko Rubio və Ukrayna üzrə xüsusi elçi Keyt Kelloq da olacaq. Məsləhətləşmələrdən sonra Vaşinqtonun, Avropanın və Kiyevin mövqeləri üst-üstə düşərsə, Uitkoff Rusiyaya səfər edəcək.

Nəşr qeyd edir ki, Londonda keçiriləcək görüşdə ABŞ-nin təklifləri müzakirə ediləcək və "potensial variantların siyahısı"na baxılacaq.

Uitkoff son üç ay ərzində Rusiyada iki dəfə Vladimir Putinlə görüşüb. Aprelin 11-də keçirilən görüşdən sonra Ağ Evin mətbuat katibi Karolin Levitt bəyan edib ki, ABŞ administrasiyasının sülh yolu ilə nizamlanmaya nail olmaq üçün təzyiq alətləri var və onlardan istifadə etmək niyyətindədir. Daha sonra Tramp Rusiyanı sülhə nail olmaq üçün "hərəkət etməyə" çağırıb.

Qəzet onu da yazır ki, Birləşmiş Ştatlar Kiyevin bu həftə müharibəyə son qoymaqla bağlı ABŞ planına cavab verəcəyini gözləyir. Bu plana Ukraynanın NATO-ya üzv olmaqdan imtinası və Amerika tərəfindən Krımın Rusiya ərazisi kimi tanınması kimi məsələlər daxildir.

Qərb rəsmiləri bildiriblər ki, ABŞ-nin təklifləri Tramp administrasiyasının yüksək səviyyəli rəsmilərinin cümə axşamı Parisdə Ukrayna tərəfinə təqdim etdikləri məxfi sənəddə öz əksini tapıb. Onlar Avropa rəsmilərinə də göstərilib.

ABŞ indi Kiyevin cavabını gözləyir və bu cavabın ABŞ, Ukrayna və Avropa rəsmilərinin həftə sonunda Londonda keçiriləcək görüşündə veriləcəyi gözlənilir.

ABŞ-nin Parisdə təqdim etdiyi təkliflər bir neçə aspekti əhatə edib. Onların arasında Ukraynanın NATO-ya üzvlüyündən imtinası ilə yanaşı, Zaporojjye AES-in ətrafındakı zonanın Vaşinqtonun nəzarətinə verilməsi də var.

Eyni zamanda, Qərb rəsmilərinin fikrincə, Tramp komandasının nümayəndələrinin irəli sürdüyü təkliflər Rusiyanın bir sıra tələblərinə uyğun gəlmir. Xüsusilə, ABŞ Rusiya Federasiyasının Ukraynanın şərq hissəsindəki dörd vilayətə (söhbət Zaporojya, Xerson, Luqansk və Donetsk vilayətlərindən gedir) qanuni şəkildə nəzarət etmək hüququnu tanımır. Eyni zamanda da, Vaşinqton rus qoşunlarının bu əraziləri tərk etməsini tələb etmir. Həmçinin, ABŞ Krımın Rusiya ərazisi kimi tanınması imkanını nəzərdən keçirəcək.

Qəzet Kiyevin mövqeyilə bağlı yazır: "Tramp administrasiyasının bəzi ideyalarını qəbul etmək Kiyev üçün çətin ola bilər, çünki Ukrayna Rusiyanın onun hər hansı ərazisinə yiyələnməsini rəsmən tanımaqdan imtina edib".

Həmçinin, nəşrin yazdığına görə, ABŞ Rusiyanın istəyinin əleyhinə olaraq, Ukrayna qoşunlarının sayını məhdudlaşdırmağı təklif etmir və Qərbin Kiyevə hərbi dəstəyini, yaxud bu ölkədə Avropa qoşunlarının yerləşdirilməsini də istisna etmir.

**RƏŞAD**

# Keçmiş nazir hakimiyyəti devirməyə çağırdı

## "Milli dirçəlişin yolu Paşinyanı aradan götürməkdən keçir"

**"Bizim yaddaş ənənəmizi uzun müddətdir səciyyələndirən aydınlıq indi Ermənistan rəhbərliyinin görünməmiş mənəvi tənəzzülü səbəbindən təhlükə altındadır."**

Azpolitika.info xəbər verir ki, bu fikirləri Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyan qondarma "erməni soyqırımı"nın ildönümü ilə bağlı dərc olunan məqaləsində bildirib.

Oskanyan Ermənistanın baş naziri Nikol Paşinyanı sərt şəkildə tənqid edərək onun "ağlasığmaz işlərdə" günahlandırıldığını qeyd edib: "O, açıq şəkildə "erməni soyqırımı' reallığını və faciənin miqyasını şübhə altına alır. Onun son bəyanatları açıq-aşkar inkar xarakteri daşımasa da, Ankaranın uzun illərdir təbliğ etdiyi revizionist ritorika ilə təhlükəli dərəcədə üst-üstə düşür".

Keçmiş nazir iddia edir ki, Paşinyan ermənilərə "soyqırım niyə baş verdi?" sualını verməyi tövsiyə etməklə, qurbanları məsuliyyətli göstərməyə çalışır və bu vasitə ilə tarixi təhrif edir: "'Soyqırımı' inkar etmək nə intellektual məşq, nə də diplomatik incəlik məsələsidir. Bu, zorakılıq aktıdır. Məqsəd təkcə həyatları deyil, həm də xatirələri, kimlikləri və həqiqətləri silməkdir. Bu səbəbdən bu günkü anım mərasimi hər zamankından daha vacibdir. Çünki biz bu gün ikiqat təhlükə ilə üz-üzəyik: xaricdən inkar və daxildən devalvasiya".

Vardan Oskanyan sonda Paşinyanı Ermənistanı mənəvi, siyasi və hüquqi hüquqlardan məhrum etməkdə ittiham edib.

"Ədaləti bərpa etmək və milli dirçəlişi təmin etmək üçün Paşinyanın hakimiyyətdən getməsi zəruridir", - deyə o vurğulayıb.

# Dinc sakinlərin ölümünə Putin göstəriş verib

## Rusiya prezidenti uşaqların da qətlə yetirildiyi raket zərbələrinə haqq qazandırdı: "Bu, onları cəzalandırmaq üçün edilib"

**Rusiya Prezidenti Vladimir Putin Ukraynanın dinc sakinlərinin Rusiya ordusu tərəfindən atəşə tutulmasına "izahat verib". Hurriyyet.az xəbər verir ki, Putin bugünkü çıxışında Ukraynanın Sumı, Odessa, Krivoy Roq şəhərlərində onlarla uşağın həlak olduğu və mülki hədəflərə yönələn Rusiya bombardmanlarına haqq qazandırıb. O deyib ki, ki, "mülki hədəflər Sumı və Odessada olduğu kimi Kiyev hərbçiləri tərəfindən istifadə edilərsə, onlara zərbələr endirilir".**

O, Sumıdakı konqres mərkəzinə raket zərbəsini "orada Ukrayna Silahlı Qüvvələrinin əsgərlərinin mükafatlandırılması" ilə izah edib. Lakin nəticədə xeyli sayda uşağın, günahsız insanların həlak olmasına izahat verməyib: "Mülki infrastruktur obyektlərini vurmamaq təklifinə gəlincə, bunu həll etmək lazımdır. Məsələn, silahlı qüvvələrimizin konqres mərkəzinə, məncə, Sumı Dövlət Universitetinin konqres mərkəzinə hücumundan hamı yaxşı xəbərdardır. Bu mülki obyektdir, ya yox? Mülkidir. Amma orada Kursk vilayətində cinayət törədənlərin, həm Ukrayna Silahlı Qüvvələrinin bölmələrinin, həm də millətçilərin mükafatlandırma mərasimi olub. Bunlar isə sərhəd bölgəsində, o cümlədən Kurskda etdiklərinə görə layiqli cəzasını almalı olan cinayətkar hesab etdiyimiz insanlardır. Onlar öz cəzalarını aldılar. Bu, məhz onları cəzalandırmaq üçün edilib".

Putin əlavə edib ki, Ukrayna Silahlı Qüvvələri "restoranlarda toplantılar, görüşlər, konfranslar keçirir, nəyisə qeyd edir, araq içirlər": "Bu, mülki obyektdir? Mülkidir. Amma hərbi hədəfdir. Bunu həll etmək lazımdır. Bütün bunlar dialoq nəticəsində, bəlkə də, ikitərəfli şəkildə, diqqətlə öyrənilməli olan mövzudur. Biz bunu istisna etmirik. Ona görə də bütün bunları təhlil edib müvafiq qərarlar qəbul edəcəyik". Belə çıxır ki, eyni məntiqlə rus hərbçilərinin də olduğu istənilən mülki obyekt, mağaza, kafe, xəstəxana, uşaq bağçası və s. partladıla bilər. Yəni, dünyanın ən böyük ərazisinə və nüvə potensialına malik olan ölkənin başçısı deyir ki, bir mülki obyektdə Ukrayna hərbçisi varsa, o, avtomatik hərbi hədəfə çevrilir və oradakı uşaqlar, qadınlar, qocalar, bir sözlə, bütün günahsız insanlar da qətlə yetirilməlidir.

Xatırladaq ki, aprelin 13-də, xristianların Pasxa bayramı öncəsi müqəddəs saydığı son bazar günündə Rusiya qüvvələri Ukraynanın Sumı şəhərinin mərkəzinə raket zərbəsi endirib. Ukraynanın Fövqəladə Hallar üzrə Dövlət Xidmətinin məlumatına görə, ikisi uşaq olmaqla 34 nəfər həlak olub, 15-i uşaq olmaqla 119 nəfər yaralanıb. Zərbə iki "İsgəndər-M" ballistik raketi ilə həyata keçirilib, onlardan biri Sumı Dövlət Universitetinin Konqres Mərkəzinə düşüb, ikincisi isə küçənin ortasında partlayıb və sərnişin avtobusunu məhv edib. Ölənlər arasında pianoçu Yelena Koqut, müəllim Marina Çudesa, altıncı sinifdə oxuyan oğlan da daxil olmaqla bütöv bir ailə, eləcə də Ukrayna Silahlı Qüvvələrinin polkovniki Yuri Yula olub.

**RƏŞAD**

# ABŞ-İran danışıqlarının üçüncü raundu başlayır

## İsmayıl Bəqayi: "Biz uzun bir yolun başlanğıcındayıq"




**İran və ABŞ arasında danışıqların üçüncü raundu, həm texniki, həm də yüksək səviyyəli müzakirəçilər səviyyəsində görüşlər Omanın paytaxtı Məsqətdə keçiriləcək.**

Bunu aprelin 21-də İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi mətbuat konfransında bildirib. "ABŞ ilə Məsqət və Romada keçirilən əvvəlki danışıqlarda ümumi çərçivələr və mövqelər müzakirə olunub. Məsqətdə keçiriləcək texniki sessiyada bu çərçivələrlə bağlı daha ətraflı mövqelər araşdırılacaq", - o, əlavə edib.

İndiyə qədər keçirilən danışıqların təfərrüatlarına gəlincə, Bəqayi deyib ki, belə müzakirələrin detalları mediada müzakirə olunmur: "Mediada təfərrüat kimi verilənlərin hamısı təsdiqlənmir və sadəcə fərziyyədir... Biz uzun bir yolun başlanğıcındayıq". XİN sözçüsü bu danışıqların İran və ABŞ arasında münasibətlərin normallaşmasındakı mümkün rolu ilə bağlı da suala da cavablandırıb.

Onun sözlərinə görə, "İran və ABŞ arasında dolayı danışıqlar nüvə məsələsi və sanksiyaların ləğvi üzərində qurulub".

Bəqayi xarici işlər naziri Abbas Əraqçinin aprelin 22-də Çinə səfər edəcəyi barədə də məlumat verib. O, ötən həftə Rusiyaya səfər etmişdi.

# Şəmkirin icra başçısına qarşı ittihamlar

## "İcra Hakimiyyətinin əməkdaşları hər ay məndən 500 manat rüşvət istəyirlər"

**Şəmkir rayon sakini Möyləqulusoy Fizuli Tahir oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şəhid ailəsinin üzvü olduğunu bildirən şikayətçi iddia edir ki, Şəmkir Rayon İcra Hakimiyyətinin nümayəndələri hər ay ondan 500 manat rüşvət tələb edirlər:**



"Mən, Möyləqulusoy Fizuli Tahir oğlu, çarəsiz qalıb mətbuat vasitəsilə səlahiyyətli qurumlardan kömək istəyirəm.

Bildirim ki, biz Şəmkir-Gədəbəy yolunun kənarında - "Yasamal perevalı" deyilən ərazidə çörək pulumuzu qazanmağa çalışan kasıb ailəyik. Yüngül ticarətlə məşğul olub, ailəmi dolandırıram. Burada heç bir tikintidən söhbət gedə bilməz.

Çəkdiyim video vasitəsilə də aydınlıq gətirmişəm. Yoldan xeyli aralı əraziyə qoyduğum stolların yerini hər zaman dəyişmək mümkündür. Bir daha qeyd edim ki, maşın yolundan xeyli aralıda xırda ticarətlə məşğul oluruq.

Əmim oğlu şəhiddir. Onun adından istifadə etmək niyyətində deyiləm. Amma məndən hər ay 500 manat pul istəyən şəxslərə də demişəm ki, şəhid ailəsiyəm, icazə verin çörəyimi qazanım.

Şəmkir Rayon İcra Hakimiyyətində işləyən bir neçə nəfər hər ay məndən 500 manat pul istəyir. Sizin sayt vasitəsilə səlahiyyətli qurumlardan kömək istəyirəm".

Məsələ ilə bağlı Şəmkir Rayon İcra Hakimiyyəti ilə əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Astara xəstaxansının baş həkimindən şikayət

**Astara rayonu, Şahağac kənd sakini İsmayılova Firavan Sərdar qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət daxil olub. Şikayətçi bildirir ki, Astara Mərkəzi Xəstəxanasının baş həkimi Oktay Əmənullayev onu qanunsuz olaraq işdən çıxarıb:**



## 24 ilin tibb işçisi qanunsuz yerə işdən çıxarıldığını iddia edir

"Mən, İsmayılova Firavan Sərdar qızı, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Hər kəsə bəllidir ki, işsizlik bir çox insanı təngə gətirib. Artıq mən də yorulmuşam. 24 il tibb işçisi olmuşam. İşlədiyim dönəmdə heç bir qanun puzuntusuna yol verməmişəm. Əhalinin, eləcə də kollektivin hörmətini qazanmışam.

Məzuniyyətdə olduğum vaxtda Astara rayon Mərkəzi Xəstəxanasının baş həkimi, direktoru Oktay Əmənullayev çağırıb dedi ki, gəl ərizəni yaz, işdən çıx. Səbəbini soruşduqda isə, bildirdi ki, "dövlət sənin diplomunu və məktəbini tanımır". Bildirdim ki, həkim, 24 ildir bu sahədəyəm, heç bir səhvim, qeyri-peşəkarlığım olmayıb. Niyə belə edirsiz? "Covid 19" dönəmində sizin əmrinizlə evdə polis nəzarəti altında müalicə alan xəstələrin mənzillərinə gedərək, ailəmi, özümü təhlükəyə ataraq onlara yardım göstərmişəm. O zaman niyə mənə demirdiz ki, sənin diplomunu dövlət tanımır?!

Baş həkimə ailə vəziyyətimi də danışdım ki, bəlkə məni işdən çıxarmazg

4 bacı-qardaşım var, onlar da xəstədilər. Övladları xəstədir, onlara da mən baxıram. Atam ağır ürək xəstəsidir, anam isə şəkər xəstəsidir. Bu dediklərimin heç birinə məhəl qoymadı.

Oktay Əmənullayev dedi ki, "cəfəngiyyat danışma, sənin ailən məni maraqlandırmır".

Mən 1 ilin, 5 ilin işçisi deyiləm, 24 illik stajım var. Bu, mənə qarşı haqsızlıqdır.

Qeyd edim ki, atam birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Müharibə vaxtı idarə etdiyi yük maçını ilə hərbçilərə ərzaq daşıyaraq, dəfələrlə özünü odun, alovun içinə atmışdır. Müharibədən ona gözlə görünməyən, amma ağrı-acısını daxilində gəzdirən bir xəstəlik "hədiyyə" qalıb. Mən də bir övlad kimi borcluyam ki, ömrümün axırına kimi onların qayğısına qalım.

Oktay Əmənullayevin arxasında hansı qüvvə durursa, heç bir qurum ona sözünü keçirə bilmir. Məni haqsız yerə işdən çıxardandan sonra Əmək Müfəttişliyinə şikayət etdim. Onlar da dedilər ki, "səni haqsız yerə işdən çıxarıblar, işinə bərpa olunmağın üçün göndəriş verəcəyik". Lakin baş həkim bu qərardan narazı olub, Əmək Müfəttişliyini mənim işimdən ötrü 2 dəfə məhkəməyə verib. Lakin Əmək Müfəttişliyi məhkəməni uddu və qərar qüvvədə qaldı. Buna baxmayaraq, 12 dekabr 2023-cü ildə Ulu öndər Heydər Əliyevin anım günü Əmək Məcəlləsinin "70 C" bəndi ilə məni işdən çıxardı. Bu günə kimi də etdiyi haqsızlığı boynuna almayıb, məni işimə bərpa etmir.

Kənddən qırağa çıxa bilmirəm ki, atam, anam baxımsız qalar. Səlahiyyətli qurumlardan xahiş edirəm, bu kimi özbaşınalıqların yayılmasına yol verməyin, işimə geri qayıtmağım üçün mənə kömək göstərin". Məsələ ilə bağlı Astara rayon xəstəxanasının baş həkimi Oktay Əmənullayevlə əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Məşğulluq Agentliyindən məktəbə xadimə göndərdilər, cəmi 2 gün işlədi...

## İmişli rayonu, Qızılkənd kənd sakini məktəb rəhbərliyindən şikayətçidir

**İmişli rayonu, Qızılkənd kənd sakini Əliyeva Kifayət Seyfulla qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin redaksiyamıza göndərdiyi məktubu olduğu kimi dərc edirik:**

"Mən, Əliyeva Kifayət Seyfulla qızı, yazaraq bildirirəm ki, hazırda haqqım tapdalanır və müraciətlərim rəsmi qurumlar tərəfindən cavabsız qalıb.

Bildirim ki, Məşğulluq Agentliyi tərəfindən şəhid Habil Hüseynov adına Qızılkənd kənd tam orta məktəbinə xadimə kimi göndərilmişəm. 2-3 gün işlədikdən sonra başqa bir xanımı işə götürüb, mənə isə gözləməyi məsləhət bildilər.

Elə həmin gündən haqsızlıq başladı. Direktora, müavininə nə qədər şikayət etsəm də, xeyri olmadı. "Bu gün", "sabah" deyib, vaxtı uzadırlar.

Hazırda məktəbin direktoru İbrahimov Qismət Baxış oğlu ağır xəstə olduğu üçün işə çıxmır. Çox güman ki, yerinə müavinini təyin edəcəklər. Bu məktəbdə dərs keçilmir, uşaqlar məktəbə gəlmir. Bütün bunları çəkdiyim videodan da görəcəksiz. Bütün bunlardan əlavə, məktəbdə rüşvət baş alıb gedir. Mənim işimi də satıblar.




Onu da qeyd edim ki, müavin Murad bəyin həyat yoldaşının məktəbdə adı lobarant vəzifəsində getsə də, məktəbə 1 dəfə də olsun gəlmir.

Nazir Emin Əmrullayev Sabirabad rayonuna gələndə qəbula yazılıb, görüşdə oldum... Məktəbdən çağırdılar ki, şikayət etməyin, 5-10 günə sizə iş verəcəyik. Amma yenə də öz saxtakarlıqlarını etdilər. Bildirim ki, 4 uşaq anasıyam, maddi vəziyyətimiz çox zəifdir.

Səlahiyyətli qurumlardan xahiş edirəm, bu məsələyə biganə qalmasınlar".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (MPM) 67.1-ci maddəsinə görə, kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir və işdə iştirak edən şəxslər iclasda yalnız vəkillə birgə iştirak edirlər. 2007-ci ildən qanuna edilən bu “vəkil sapalağı”nın başlıca məqsədi-amacı mülki prosesin iştirakçılarının peşəkar hüquqi yardımla təmin edilməsi olsa da, gerçəkdə hüquqa, məhkəmə təminatına qadağadan özgə bir şey deyil. Nədən məqsədlə, niyyətlə arzu, nəticə-sonuc düz gəlmir.



# Məhkəmə müdafiəsi hüququna məhkəmənin “vəkil sapalağı”

## MPM-in 67-ci - vəkilin prosesdə məcburi iştirakı maddəsi ləğv edilməlidir



Məğrur BƏDƏLSOY

Ən başlıcası, söhbət keyfiyyətli hüquqi yardımdan gedirsə, vətəndaşın istədiyi hüquqçunun xidmətindən yararlanmağına qadağa qoyulması, yalnız Azərbaycan Respublikasında vəkil kimi səlahiyyəti təsdiq olunmuş şəxslərin, yəni Vəkillər Kollegiyasının üzvlərinin “diplomlarının- orderlərinin tanınması” dövlət hakimiyyətinin səmimiliyini heçə çıxarır. İcra hakimiyyətindən qanunvericiyə qəbul etdirilən, məhkəmə hakimiyyətinin peşəkar hüquqi yardım tanımasına baxın, hüquq doktorundan, professordan, keçmiş hakimlərdən, prokurorlardan, ədliyyə işçilərindən, vəkillərdən... VK-nın orderi tələb olunur! Hüquq doktoruna sıradan “paykovoy” vəkil yardım edəcəksə, hansı keyfiyyətli hüquqi yardımdan danışmaq olar? Eyni zamanda, mülki proses iştirakçısını zorla vəkillə müqavilə bağlamağa məcbur etmək heç də xoş niyyətdən xəbər vermir. Yaşayış minimumunun 300 manat, vəkil orderinin 320 manat civarında olduğu ölkədə vəkillə müqavilə bağlamağın mümkünsüzlüyü şübhə doğurmur.

Düzdür, qanunverici maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olan şəxslərə, 1-2-ci dərəcəli əlillərə, insan alverinin qurbanlarına , məişət zorakılığından əziyyət çəkmiş şəxslərə, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş şəxslərə, ünvanlı dövlət sosial yardımı alan ailənin üzvlərinə, işsiz statusu olan şəxslərə dövlət hesabına hüquqi yardımla təmin olunmaq hüququ verir, amma hüququn gerçəkləşməsini məhkəmənin uyğun qərardadından asılı edir. Məhkəmə hakimiyyəti ədalət, vicdan hissini unudub, qərəzini qüvvəyə mindirəndə heç bir əlilqazi, yetim-yesir arayışı yardıma çatmır. Ünvanlı sosial yardım, əlillik, pensiya təyinatında məmur-həkim “resepti” kimi, vəkil təyinatında da hakim-vəkil yoxlaması “büdcənin pulsuz vəkil haqqı ilə çökdürülməsinə” yol vermir.

İnzibati mübahisələrə dair işlərdə kassasiya icraatında vəkilin məcburi iştirakı nəzərdə tutulmasa da, hüquqi yardım göstərmək vəzifəsi məhkəmənin üzərinə qoyulsa da, hakimlər nəinki İPM-in 13 və 48-ci maddələri əsasında özləri yardım edir, heç dövlət hesabına vəkil ayrılmasını da təmin etmədən iddianı mümkün saymırlar. Halbuki Ali Məhkəmə Plenumunun 10.04.2015-ci il tarixli, 5 saylı “İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair” Qərarının 3-cü bəndində yardım etmək vəzifəsinə əməl edilmədən iddianın mümkün sayılmamasının yolverilməzliyi təsbit olunub. Di gəl, kimdir prosessual qanunvericiliyi, Ali Məhkəməni, Plenumu sayan? Hakimlərin saydığı yalnız qeyri-prosessual sifarişdir. Qeyri-prosessuallığa, məhkəmə qərəzinə baxın, Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyası (Şərafət Məmmədova, Pərviz Hüseynov, Cahangir Yusifov, Aytən Oruczadə və s. və i.a, tam tərkibdə) 1-ci dərəcəli Qarabağ əlilinin kassasiya hüququna 3 il olar qadağa qoyub ki, vəkildən imtina əsas insan və vətəndaş hüquq və azadlığıdır və 3 il qabaq qəbul olunmuş vəkildən imtina qərardadı preyudisial akt sayılır, daha heç vaxt 1-ci dərəcəli əlilə dövlət hesabına vəkil ayrıla bilməz!(?)

Ali Məhkəmə də bu preyudisiallığı qüvvəyə mindirib, Konstitusiya Məhkəməsi də 1 ildir susmaqla Konstitusiyanın qüvvəsiz olduğunu, əlillərə, yetim-yesirə yardım etmədiyi gerçəkliyini təsbit edir.

> İnzibati mübahisələrə dair işlərdə kassasiya icraatında vəkilin məcburi iştirakı nəzərdə tutulmasa da, hüquqi yardım göstərmək vəzifəsi məhkəmənin üzərinə qoyulsa da, hakimlər nəinki İPM-in 13 və 48-ci maddələri əsasında özləri yardım edir, heç dövlət hesabına vəkil ayrılmasını da təmin etmədən iddianı mümkün saymırlar...

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası da dövlət hesabına hüquqi yardımdan 1-2-ci dərəcəli əlillərə, yetim-yesirə pay düşmədiyini aktlaşdırmaqda İnzibati Kollegiyadan geri qalmır. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası 2 il qabaq 2 ayrı tərkiblə (sədrlik edən Günay Axundova, Cəmilə Musayeva, Fuad Babayev və sədrlik edən Fuad Abdıyev, Fərrux Qasımov , Anar Tanrıverdiyev) “Azərişıq” ASC-yə qarşı xidmətən imtinaya qiymət verilməsi tələbi ilə Sabunçu məhkəməsinin (Adilə Paşayeva) cavabdehin qeyri-prosessual basqısı ilə istehlakçı hüququnun müdafiəsi ilə bağlı işin inzibati məhkəməyə aid olması “əsasında” icraata xitam verməsi qərardadından şikayəti təmin etməyib və kassasiya şikayəti verməyə də dövlət hesabına vəkildən imtina edib ki, iddiaçı 1-ci dərəcəli Qarabağ əlilinin pensiyası, gəlirləri vəkilin dövlət hesabına ayrılmasına əsas vermir. 2 ildir Prezident (Administrasiyası), Milli Məclis, Ali Məhkəmə, Məhkəmə Hüquq Şurası eyni iş üzrə 2 ayrı apellyasiya heyətinə MPM-in 67 1.1, 67-1.4.1 maddəsinin tələbini anlada bilmir, sadəcə məhkəmə anlaqsızlıq edir. 2-3 il geriyə getməyə ehtiyac yoxdur, Bakı Apellyasiya Məhkəməsinin mülki və inzibati kollegiyaları kassasiya hüququna qadağa qoymaq barədə “məhkəmə təcrübəsinin vahidliyi” prinsipinə elə canbaşla əməl edirlər ki, keçmişə şükür edirsən!

MPM-in 402.2.2-ci maddəsinə görə, kassasiya şikayətinin geri qaytarılması haqqında qərardaddan (ali instansiyanın şikayəti mümkünsüz sayıb qaytarması istisna olmaqla) kassasiya şikayəti verilə bilər. Bakı AM-in MK-sının (sədrlik edən Rafael Eyvazov, Fuad Babayev, Cəmilə Musayeva) hüquqi faktın müəyyən edilməsindən imtina qərardadından 1-ci dərəcəli Qarabağ əlilinin kassasiya şikayəti geri qaytarılıb və MPM-in 402.2.2 maddəsi əsasında bu geriqaytarma qərardadından kassasiya şikayəti verməyə dövlət hesabına vəkil ayrılmasına ərizə verilib. Ərizəyə baxılmadan şikayət kassasiya instansiyasına göndərilib. 1-ci dərəcəli əlil kassasiya qaydasında işə baxan heyətə dövlət hesabına vəkil ayrılmasına ərizə verib. Ali instansiya işi vəkilin tərtib etməməsi əsası ilə mümkün saymayıb və geri qaytarıb. İndi bir aydır Bakı AM-in sədri Rafael Eyvazov olan heyəti dövlət hesabına vəkillə təminat barədə əlilin ərizəsinə baxmır. Xumar Mərdanova, Vahid Sadıqov, Sabit Bəhrəmzadə üçlüyünün kassasiya hüququna vəkil qadağası da çeşidli bəhanələrlə zəngindir. Bəhanəyə baxın, 1-ci dərəcəli Qarabağ əlilini məhkəməyə müraciət etdiyinə görə 400 manat cərimə edən üçlüyün qərardadından şikayət geri qaytarılıb, kassasiya hüququ təmin edilməyib ki, 1-ci dərəcəli əlil olmaq, SN-in rəyi

ilə xaricdə müalicəyə ehtiyacın olması barədə tibbi sənədlər imkansızlığı sübut etmir və dövlət hesabına vəkil ayrılmasına əsas vermir. (?) Onu da vurğulayaq ki, cərimə qərarı inzibati xəta aktıdır və belə işlərdə vəkilin iştirakı məcburidir. Xumar Mərdanova və heyəti isə MK-nın sədri Rafael Eyvazovun qeyri-prosessual göstərişini prosessual qanunvericilikdən üstün tutur. Niyə də tutmasın, 1959-cu ildən özgənin əmlakı olan mənzili ələ keçirməyə 12 ildən sonra apellyasiya aktı ilə nail olmaq sədrin razılığı olmadan mümkün deyil axı! İndi sədrin tapşırığına necə əməl etməmək olar?

Nə isə, uzatmayaq, yoxsa bir qəzet səhifəsinə sığmaz. Göstərilənlər MPM-in 67-ci maddəsi ilə təsbit olunan vəkilin prosesdə məcburi iştirakının kassasiya hüququna, məhkəmə müdafiəsi hüququna qadağadan özgə bir şey olmadığını sübut edən faktlardır. Bir hüquq ki, məhkəmənin qərəzindən asılı ola, o hüququn gerçəkləşməyəcəyi bəri başdan bəlli edir. Onu da vurğulamaq mütləqdir ki, işlərə yazılı icraat qaydasında, yəni tərəflər çağırılmadan, iclas keçirilmədən baxılması qanuniləşibsə, vəkilin məcburi iştirakına nə ehtiyac? Bu ehtiyac yalnız və yalnız vətəndaşın hüququna qadağadan yanadır. Qadağanın aradan qaldırılması vəkilin məcburi iştirakının qanundan çıxarılması ilə mümkündür.



# Xalqın qürur yeri

## Şəhid Emil Şıxəlizadə doğum günündə anıldı

Ölümündən sonra əbədiyaşarlıq qazanmaq hər kəsə nəsib olmur. Xüsusilə, özünü biləndən həyatının dəyərini Vətənə, xalqa təmənnasız xidmətdə görənlər heç vaxt unudulmur. Lənkəran rayonunun Gərmətük qəsəbəsində boya-başa çatan Emil Şahin oğlu Şıxəliyevin bu işıqlı dünyaya gəlib getməsi cəmi 22 il oldu. 44 günlük haqq savaşımızda canın doğma Azərbaycana qurban etməklə əbədiyyətin ən uca, ünyetməz zirvəsinə ucaldı. Nəsibi şəhidlik zirvəsindən boylanmaq səadəti olan Emili xalq özünə iftixar mənbəyi, qürur yeri bilir. Qərinələr keçəcək yenə onun adı yaddaşlarda yaşayacaq.

Azərbaycanın yeni, şanlı tarixini yazan qəhrəman oğlanlardan bir olan Emil Şıxəliyev Gərmətük qəsəbəsində orta məktəbi başa vurub. Ürəyi sevdalı yeniyetmə müstəqil həyata qədəm qoyanda onda olan Vətən eşqi, yaratma, yaşatmaq həvəsi insanları heyran qoyub. Yüksək əxlaqı, insanpərvərliyi, canına hopmuş qeyrət, mərdlik hissi onun öz millətinə ləyaqətli oğul olmasından xəbər verib. Emil yağıdan qisas almağı özünə əsas amal sayıb, elə orduya bu məqsədlə yola düşüb.

2017-ci ildən cəbhə bölgəsində Vətənin keşiyində duran Emil ona layiqli övlad kimi ləyaqətlə xidmət edib. Mərdliyi, cəsarəti, dosta sədaqəti onu əsgərlərin, zabitlərin ən sevimlisinə çevirib. Hansı tapşırığa gedibsə, igidliyinə görə fərqlənib. Çətin təlimlərdə belə uğur qazanıb, öz şəxsi nümunəsi ilə əsgər yoldaşlarının ürəyində Vətənə məhəbbət, cəsurluq, kişilik, dığalara nifrət hissi alovlandırıb. Necə deyərlər, Vətən torpaqların bütövlüyü naminə yaşının çərçivəsinə sığmayan işlər görüb, cənnət-misal Qarabağımızı əsarətdə saxlayan erməni cəlladlardan qisas almaq üçün məqam axtarıb.

Emil əsgərlikdən sonra yağıdan alacağı öcə görə orduda qalıb. Ermənistan işğalçı hərbi birləşmələrinin 2020-ci ilin sentyabrın 27-dən cəbhə xətti boyunca Azərbaycanın hərbi mövqelərini və yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutmasına cavab olaraq Ordumuz Ali Baş Komandanın əmri ilə əks-hücuma keçib. Başlanan İkinci Qarabağ müharibəsinin ilk günündə Emil Şıxəliyev odlu səngərdə öz yerini alıb. Füzulinin, Cəbrayılın, Qubadlının mənfur düşməndən təmizlənməsində rəşadət göstərib. Hər dəfə savaş meydanında yağıya ciddi itkilər verib. Qəhrəman Vətən sevdalısı oktyabrın 18-də atası Şahinlə danışanda deyib: - Ata, bu müharibə o müharibə deyil. Bizim müharibə qələbə müharibəsi olacaq.

Oktyabrın 22-də Füzuli istiqamətində ağır döyüşlər başlanıb. Qartal tək yağı üstə şığıyan Emil düşmənin xeyli canlı qüvvəsini məhv edib. Təəssüf ki, özü də qarşı tərəfdən atılan artilleriya mərmisi nəticəsində şəhadətə qovuşub. Beləcə, Vətən torpağının azadlığı uğrunda canını qurban verən qəhrəman əbədi olaraq milyonların ürəyinə köçüb. Dövlət də onu daimi ucalıqda saxlamaq üçün şəhid Emil Şıxəliyevi "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın, Qubadlının azadlığına görə medallarla təltif edib.

Bəli, ənənəyə görə hər il şəhid Emil Şıxəlizadənin doğum günü xalq, doğmaları tərəfindən böyük məhəbbətlə anılır və barəsində unudulmayan xatirələr danışılır. Ölümsüzlüyə qovuşan qəhrəmanın 27 yaşının tamamında da belə oldu. Həmçinin Lənkəran şəhər Mədəniyyət Mərkəzinin direktoru və əməkdaşları şəhidin ailəsini ziyarət etdilər. Ziyarət zamanı mədəniyyət nümayəndələri bildirdilər ki, 44 günlük haqq savaşımızda Azərbaycanın qeyrətli oğulları bir daha göstərdilər torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Emil də əzəli yurd yerlərimizin azadlığı uğrunda şirin canından keçdi. Göstərdiyi şücaət ona ölməzlik gətirdi.

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "İnsanlar gömrüyə haqsız ödənişlər etmək istəmirlər"

## İqtisadçı Natiq Cəfərli: "Onlardan terminal pulu, sənəd pulu, qələm-mürəkkəb pulu yığılır"

**Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırovun bir neçə gün əvvəl Azərbaycandakı yüksək gömrük rüsumları ilə bağlı izahı birmənalı qarşılanmayıb. Komitə sədri deyib ki, "bəzən insanlar digər şəxsi xərcləri barədə düşünmür, amma gömrük ödənişlərinə yanaşmada tərəddüd edirlər". Bununla da Bağırov bir növ rüsumlara haqq qazandırıb.**



İqtisadçı Natiq Cəfərli öz sosial şəbəkə səhifəsində Ş.Bağırovun fikirlərini tənqid edib: "Hörmətli Şahin müəllim, tam tərsi, insanlar digər xərclərini DÜŞÜNÜRLƏR deyə, Gömrük Komitəsi tərəfindən haqlı-haqsız ödənişlərə məruz qalmaq istəmirlər.

Digər xərcləri DÜŞÜNÜRLƏR - kommunal xidmət ödəməlidirlər, DÜŞÜNÜRLƏR ki, ərzaq bahalaşır, çatdıra bilmirlər, DÜŞÜNÜRLƏR ki, uşaqlar böyüyür, xərcləri artır. Gömrüyə geri dönüşünü hiss etmədikləri ödənişlər etmək istəmirlər.

Məsələn, ölkəyə avtomobil gətirənlər gömrükdə əlavə xərclərlə üzləşirlər, hansısa MMC təsis edilib, onlar terminal pulu, sənəd pulu, qələm-mürəkkəb pulu və s. yığır, vəya, vətəndaş özünə, evinə xaricdən nəsə alır, bu kommersiya məqsədi deyil. Amma Azərbaycan, məsələn, paltar, kompyuter, telefon və s. istehsal edən ölkədən vergi-rüsum şəklində daha çox qazanır, yəni, özümüz heç nə istehsal etmədən istehsalçılardan çox qazanmaq istəyirik.

Şahin müəllim daha sonra deyib: "Əslində, vətəndaşların idxal etdikləri mallara görə ödədikləri vəsait dolayı yolla özlərinə qayıdır".

Şahin müəllim məntiqlə düz deyir, vergi-rüsum büdcəyə gedir, oradan da müxtəlif xərclərin, məsələn, maaş-təqaüdlərin ödənilməsinə sərf olunur. Amma büdcənin başqa xərcləri də var axı. Problem odur ki, təmir-tikinti xərcləri ilə bağlı vətəndaşlara məlumat verilmir, hətta rəsmi dövlət qurumu olan Hesablama Palatası hər il yüzmilyonlarla izafi xərclər müəyyən edir - amma heç bir tədbir görülmür, heç kəs cəzalandırılmır.

Hörmətli Şahin müəllim, Siz və hökumətin bir çox üzvləri iqtisadiyyata "sol"-dan baxırsınız, deyirsiniz ki, vətəndaş, sən vergi-rüsumu çox ödə (qanunlara görə, bəli, bizdə rüsum-vergi yüksəkdir), biz həmin pulu toplayıb sənə xərcləyəcəyik. Biz isə illərdir iqtisadiyyata "sağ"-dan baxmağı təklif edirik - vətəndaş vergi-rüsum az ödəyəndə zatən pul cibində qalır, dolayısı ilə qayıtmır, vergi-rüsum az ödədiyi zaman cibində qalan pulu iş adamıdırsa biznesə yatırıb əlavə iş yeri, deməli əlavə vergi-rüsum mənbəyi yaradır, adi vətəndaşdırsa, cibində qalan pulu yenə iqtisadiyyatda xərcləyir, nəsə alır, bununla da ticarət dövriyyəsini, dolayısıyla büdcəyə vergi-gömrük daxilolmalarını artırır.

Bizim hökumətlə fundamental, ideoloji fərqimiz budur..."

**Hazırladı: KƏNAN**

# Bu şəxslər bankların "qara siyahı"sına düşməyəcək...

**Prezident İlham Əliyev "Kredit büroları haqqında" qanuna edilən dəyişiklikləri təsdiqləyib. Bu dəyişikliyə əsasən, Azərbaycanda nisyə mal alqı-satqısı ilə məşğul olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər, təqvim ili ərzində nisyə satış dövriyyələri 100 000 manatı keçsə belə, artıq kredit bürolarına məlumat təqdim etmək öhdəliyindən azad olunurlar.**




Prezidentin qərarını şərh edən iqtisadçı-deputat Vüqar Bayramov bildirib ki, əvvəllər bu kateqoriyaya aid sahibkarlar müştərilərinə dair kredit tarixçələrini fəaliyyət göstərən ən azı bir kredit bürosuna təqdim etməyə borclu idilər: "Adətən, kredit tarixçəsinə aid məlumatların təqdim olunması inzibati prosedurlar, zaman və eləcə də əlavə xərclər tələb edirdi. Digər tərəfdən, bu öhdəliklərə əməl edilməsinə nəzarət də heç də asan deyildi və məsuliyyətə cəlb etmək çətin və mürəkkəb bir mexanizmə əsaslanırdı".

İqtisadçının fikrincə, yeni dəyişiklik bir tərəfdən şirkətlər və vətəndaşlar üçün qaydaların sadələşdirilməsinə, eləcə də onların kredit tarixçələrinin bu tip əməliyyatlar səbəbindən pisləşməsinin qarşısının alınmasına şərait yaradacaq: "Digər tərəfdən, yeni qaydalar vətəndaşlarımızın bu sahədə inzibati prosedurlardan keçmək zərurətini aradan qaldırdığı üçün onların həm vəsaitə qənaət etməsinə, həm də bu səbəbdən kreditlər üzrə "qara siyahı"-ya düşmələrinin qarşısının alınmasına gətirib çıxaracaq".

Vüqar Bayramovun sözlərinə görə, gözlənilir ki, bu dəyişiklik həm də bu sahədə aktivliyin artmasına və alqı-satqı dövriyyəsinin genişlənməsinə imkan yaradacaq.

Hürriyyət

# Hekayə

SİZİN ÜÇÜN QƏZET

№14 (3353) 22 Aprel / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Diyə

Turalgil ailədə iki qardaş, bir bacı idilər. Tural sakit, həlim xasiyyətli, dalaşmağı sevməyən, dostcanlı, canıyanan biri idi. Əsas hobbisi kitab oxumaq, təbiət qoynunda təklikdə gəzmək, oğlan uşaqlarına bir o qədər də xas olmayan gülə-çiçəyə vurğunluğu idi. Buna baxmayaraq, qohum-qardaş Turalı daha çox sevirdilər.

**Böyük qardaşı Turalın tam əksinə, dalaşmağa meylli, "qabağından yeməyən", tez özündən çıxan biri idi. Ailənin ilki olduğundan xeyli ərköyün böyümüşdü. Necə deyərlər, yetənə yetir, yetməyənə bir təpik atırdı. Tural qardaşından on yaş kiçik idi, arada bacıları doğulmuşdu.**

**Hər şeyin yaxşı getdiyi günlərin birində Turalgilin ailəsinə çox dəhşətli bəd xəbər gəldi. Turalın böyük qardaşını naməlum şəraitdə kimlərsə qətlə yetirmişdi. Bu hadisəni kimin törətməsi naməlum idi. Şahidlər yox idi. Hadisədən çox gec xəbər tutulduğundan hadisə yerində də kiməsə rast gəlinməmişdi. Turalgilin ailəsi qatilin tapılması üçün çox çalışsalar da, istintaq bir iş görə, qatilin kim olmasına aydınlıq gətirə bilmirdi. Bunun əvəzinə, gündə bir şayiə yayılırdı.**

***(Əvvəli ötən saylarımızda)***



Ertəsi gün İnci vaxtından qabaq universitetə getdi. Nədənsə Tural da vaxtından əvvəl gəlmişdi. Tural cəsarət edib İnciyə yaxınlaşa bilmirdi. Ailəsinin onların birləşməsinə razılıq vermədikləri xəbərini eşitməkdən qorxurdu. O, bu xəbərə dözə bilməzdi. İndi bu həyata onu bağlayan yeganə güc İnciyə olan sevgisi idi.

İnci ona yaxınlaşdı. Tural başını aşağı salıb İncinin verəcəyi bəd xəbəri eşitməyə hazırlaşırdı. İnci Turalın üzünə baxdı: "Tural, eşqimiz uğrundan vuruşmağa hazırsan?". Tural dərhal, "Sən nə danışırsan, həyatımı belə, qurban verərəm, təki ayrılmayaq", - deyə cavab verdi. "Onda mənə diqqətlə qulaq as...", - İnci ailələri arasında olan köhnə ədavət haqqında hər şeyi Turala danışdı. Qardaşının onu qardaşını ehtiyatsızlıq nəticəsində öldürdüyünü, özünün də çoxdan öldüyünü, qisas almalı bir adamın olmadığını, onların birləşməsi yolunda yeganə əngəlin Turalın ailəsinin qisas almaq fikri olduğunu söylədi. Tural eşitdiyi xəbərdən sarsıldı. Sən demə, ailəsinin illərlə nifrət etdiyi, məhv etməyə fürsət axtardığı ailənin qızına vurulubmuş. Amma indi İncisiz onun üçün yaşamağın bir mənası qalmamışdı. "Bəs nə edək?", - Tual öz-özünə mızıldandı. İnci cavab verdi: "Əgər sən də axıracan eşqimiz uğrunda vuruşmağa hazırsansa, gedək sizə, hər şeyi açıb sizinkilərə deyək". Əvvəl Tural bu fikrə yaxşı baxmadı, ailələrinin bunu necə qarşılayacağını təsəvvür belə, etmək istəmədi. Amma məhəbbətini də qurban vermək fikrində deyildi. O, indi qisasla eşq arasında seçim qarşısında qalmışdı. Təbii ki, o, eşqi seçdi və "Sən necə istəsən, elə edək", - dedi.

Sabahısı gün İnci ailələrindən xəbərsiz Turalla birlikdə kəndə yollandı. Turalgilin ailəsi gəncləri böyük sevinclə qarşıladı. Düzdür, el adətinə uyğun gəlmədiyindən, onların bu səfərinə əvvəl birtəhər baxsalar da, qısa müddət ərzində İnci ilə münasibətdən sonra xeyli rahatladılar. Turalın anası ilə bacısının uçmağa qanadı yox idi. Tural çox gözəl, ismətli, mədəni bir qız sevmişdi. Turalın xoşbəxtliyi ailənin yeganə məqsədi idi. Turalın anası evdə hər dəfə o tərəf, bu tərəfə keçəndə İncini öpür, saçlarını sığallayır, "mənim gözəl gəlinim" deyə ona iltifat göstərirdi.

Turalla İnci bir-birinə çox yaraşırdılar. Anası gəncləri pis gözlərdən qorumaq üçün üzərrik yandırmağı da unutmadı. Turalın atası da evdəkilərdən xəbər tutan kimi, gənclərin şərəfinə bir qoç qurban kəsib, qonşulara payladı.

İnci ilə Tural bu qədər sevincdən sonra ailəni kədərə boğmaq istəməsələr də, həqiqəti açıb demək məcburiyyətində idilər. Hardan və kim başlasın? Nəhayət, Tural özündə qüvvə tapıb, "ata, İncigil də bizim kənddəndirlər", - dedi. Anası təccüblə üzünü İnciyə tutub, "Bıy, qızım, kimlərdənsən?", - deyə soruşdu. Tural, "Ana, tələsmə, bizim məsələmiz çox ciddidir", - deyə müdaxilə etdi. Anası atasının, atası anasının üzünə baxıb, təəccüblə Turala tərəf döndülər: "Nə məsələ, ay bala?!"

İnci Turalın cavab verməyə çətinlik çəkdiyini gördü və ona danışmağa imkan vermədən, birbaşa özü mətləbə keçdi: "Mən sizin qan düşməninizin qızıyam". Turalgilin evinə elə bil bomba düşdü. Evdəkilərin hamısı birdən "Nə?!" deyə bağırdı: "Necə yəni nə qan düşməni, sən kimlərdənsən ki?" İnsi ailələri ilə bağlı anasının dediklərini bir-bir Turalın ailəsinə danışdı. Qardaşının istəmədən cinayət törətdiyini, sonra qan düşmənçiliyi olmasın deyə ailələrinin kəndi tərk etdiklərini, şəhərdə başqa ad və soyadla yaşadıqlarını, qardaşının o hadisədən az bir müddət sonra avtoqza nəticəsində həyatını itirdiyini təfsilatı ilə anlatdı. Turalin ailə üzvləri donub qalmışdı. Bir tərəfdən qapılarına qan düşmənlərinin qızı gəlmişdi, digər tərəfdən oğlanları bu qızı həyatı qədər sevirdi, eyni zamanda, qisas alacaqları günahkar da artıq bu dünyada yox idi. Yəni qisas almağa bir adam qalmamışdı. İnci də qız uşağı idi. Oğlana görə qızdan qisas almaq dinə zidd idi. Həmçinin, Turalın xoşbəxtliyi də onlar üçün hər şeydən üstün idi. Onların bir-birinə olan məhəbbətini görmək çətin deyildi. Məhz bu məhəbbətin gücü onları bura gəlməyə, bu acı həqiqəti etiraf etməyə məcbur etmişdi.

İnci Turalın cavab verməyə çətinlik çəkdiyini gördü və ona danışmağa imkan vermədən, birbaşa özü mətləbə keçdi: "Mən sizin qan düşməninizin qızıyam". Turalgilin evinə elə bil bomba düşdü. Evdəkilərin hamısı birdən "Nə?!" deyə bağırdı: "Necə yəni nə qan düşməni, sən kimlərdənsən ki?" İnsi ailələri ilə bağlı anasının dediklərini bir-bir Turalın ailəsinə danışdı...

Turalın atası hamıdan tez özünə gəldi. Arvadının üzünə baxdı. Ər-arvad bir-birinin üzündə kin, nifrət, qısaqanclıq görmədi. Turalın atası, "siz doğrudan bir-birinizi elə sevirsiniz ki, ayrıla bilməzsiniz", -deyə sual etdi. Tural utana-utana, "ata, İncidən ayrılmaqdansa ölmək istəyərəm", - deyə cavab verdi. Eyni fikri buna yaxın formada İnci də təkrarladı. Turalın atası nə edəcəyini bilmədi. Bir tərəfdən oğlunun qatilini tapmış, qisas alacağı ailənin bir üzvü öz ayağı ilə evinə gəlmişdi, digər tərəfdən günahkar Allah tərəfindən cəzalandırılmışdı, qisas almağa kimsə yox idi.

Turalın atası heç kəsə bir söz demədən qonşu otağa keçdi. Turalın anasının gözü İncini ilk baxışdan tutmuşdu. Oğlunun da nə qədər xoşbəxt olduğunu görürdü. Amma söz sahibi Turalın atası idi, o, nə cür qərar verəcək, məlum deyildi.

Turalın anası ayağa qalxıb, uşaqlara yemək-içmək hazırlamağa başladı. İnci də ona kömək etmək üçün mətbəxə keçdi. Turalın anasına elə gəldi ki, İnci elə bu evdə doğulub, bu evin qızıdır, ona qarşı ürəyində bir yaxınlıq hiss etdi. Gələcək nəvələrinin anası kimi baxdı. İnci həqiqətən oğluna yaraşırdı.

İnci mətbəxdən bir stəkan çay və konfet götürüb, Turalın atası olan otağa keçdi. O, divanda oturub dərin fikirlərə qərq olmuşdu. Nə cür qərar verəcəyi ilə bağlı bir fikrə gələ bilmirdi. Bir tərəfdən ölən oğlunun bədbəxtliyi, digər tərəfdən Turalın xoşbəxtliyi onun konkret qərara gəlməsinə imkan vermirdi. Turalın atası bir oğlunun məhəbbəti ilə digərinin intiqamı arasında seçim etmək məcburiyyətində idi: "Hansı daha vacibdi, ölən oğlunun intiqamını almaq, yoxsa Turalı xoşbəxt etmək üçün onun İnci ilə ailə qurmasına razılıq vermək? Bəs kənd cammatı necə olsun?! Bəs adətlər?!" Birdən yadına Qurani-Kərimn Bəqərə surəsinin 178 -179-ci ayələri düşdü: "Ey iman gətirənlər, sizə öldürülənlər barəsində qisas yazılmış və qərara alınmışdır: azad şəxsin müqabilində azad, qulun müqabilində qul və qadının müqabilində qadın. Beləliklə, kim öz qardaşı tərəfindən müəyyən qədər əfv olunsa, onda bəyənilən bir yol seçməlidirlər və diyəni ona yaxşılıqla, gözəl surətdə ödəməlidir. Bu, sizin Rəbbiniz tərəfindən bir yüngüllük və rəhmətdir. Odur ki, kim əfv etdikdən sonra həddini aşsa, onun üçün agrılı bir əzab vardır... Ey ağıl sahibləri, qisasda sizin üçün həyat vardır, bəlkə çəkinəsiz". Turalın atasının üzərindən elə bil ağır bir yük götürüldü. O, problemin həllini tapmışdı, oğlunun öldürülməsi müqabilində İncigilin ailəsindən diyə istəyəcəkdi və bu diyənin də İnci olduğunu deyəcəkdi. Bununla da, bu günədək onu yandırıb-yaxan qisasdan qurtulacaq, həm də bir yox, iki həyat xilas edəcəkdi - oğlunun və İncinin həyatını.

İnci çayı jurnal stolunun üzərinə qoyub, "atacan, sizə çay gətirdim, için", - dedi. O, bir dəqiqə ayaq saxladı, Turalın atasının üzünə baxıb, nə cür qərar verdiyini bilmək istədi. Amma heç nə anlamadı. Turalın atasının üzündə qeyri-müəyyə bir ifadə vardı. İnci titrək səslə, "Atacan, bizi ayırma, mən Turalsız yaşaya bilmərəm, o da mənsiz. Əgər qisas almaq istəyirsinizsə, hər ikimizin canını alın, mən buna hazıram. Turalsız yaşamaqdansa, Turalla ölmək mənim ucun daha yaxşıdır", - deyə bildi. Daha sonra göz yaşlarına boğula-boğula cavab gözləmədən otaqdan çıxdı.

Tural İncinin atasının yanından gözüyaşlı çıxdığını görüb, biraz ürəkləndi. Məhəbbəti uğrunda axıra qədər vuruşacağı ilə bağlı İnciyə verdiyi söz yadına düşdü. Tərəddüd edə-edə atasının yanına keçdi. Yaxına gəlib, atasının qarşısında diz çökdü, onun ayaqlarını qucaqladı. Atasının gözlərində dərin bir kədər qarışıq sevinc gördü. Biraz ürəkləndi, "Ata, sən İncigildən qisas almaq istiyirsənsə mənim canımı al, onsuz da mən İncisiz yaşaya bilməyəcəm", - dedi. Atası xəyal aləmindən ayrılıb, oğluna baxdı. Oğlunun gözündəki yalvarış onun qəlbini dağladı. Böyük oğlu gözünün qarşısına gəldi. Yaxşı bilirdi ki, Turalın başına bir şey gəlsə nə özü, nə arvadı bir gün də onsuz yaşaya bilməyəcəkdilər. Əlini uzadıb Turalın saçlarını sığalladı. "Camaatı bura çağır", - dedi.

Tural hamını qonaq otağına dəvət etdi. Turalın atası əvvəl qəmli-qəmli onu izləyən arvadının üzünə baxdı. Arvadının üzündəki yalvarışı görüb, üzünü Turala çevirdi. Oğlu edam cəzası gözləyən məhbus kimi, başını aşağı salıb ümidsizcəsinə yerə baxırdı. Turalın yanında dayanmış İnci də meyit kimi saralmışdı. Onun və dünyalar qədər sevdiyi Turalın həyatı veriləń cavabdan asılı idi. Göz yaşlarını saxlaya bilmirdi. Sanki özlərinin nakam talelərinə ağlayırdı. Turalın atası özünü toplayıb qərarını elan etdi: "Hazırlaşın, şəhərə elçiliyə gedirik. Mənim ən böyük intiqamım düşmənimin qızını özümə gəlin etmək olacaq. İnci mənim qisasımın diyəsi olacaq..."

**AZAD**

# Bəxtiyar Vahabzadənin poeziyasında kamil şəxsiyyət problemi

İnsan - dünyanın xaricində yaşayan varlıq deyil... "İnsan - İnsan dünyasıdır, dövlətdir, cəmiyyətdir" - bu, fikir dahi K.Marksa aiddir, bu gün də dəyərini itir-məmişdir. Qalır insanın ailədə və cəmiyyətdə tərbiyəsinə. Şəxsiyyətin yetişməsin-də əsas amil münasibətlərin qurulmasıdır: mənəvi zənginlik, sərvətlərin maddiləş-məsi və düşüncələrin emosionallığı və sairin öz yerini tutmasıdır.



Allahverdi Eminov

Şəxsiyyətin daxilən dəyərliliyi Dünyanı tam şəkildə, məzmunda və biçimdə təsəvvür etmək imkanı qazandırır. Dünya həm insanlardan asılı deyil, həm də asılıdır, çün, Dünyanı mövcud edən məhz insan cəmiyyətidir. Dünyanın maddi sta-tus alması əxlaqda və sərvət yığımında özünü göstərir və bu şəxsiyyətin fəaliyyətində, yaxud bədii əsərlərdə, deyək ki, poeziyanın obrazlarında reallaşır. Beləliklə, şəxsiyyətin tam obrazını təmsil edən bədii mətn davranışın meyarı rolu-nu oynayır və əxlaqi idealda sonuclanır. Bir də obrazların (xüsusilə, poemalarda) didaktik strukturu vardır ki, öz elementlərinin tabeliliyi, əxlaqi şüurun bütövlüyü ilə fərqlənir. Məsələn, kimsəsizə yardımçı olmaq, təmənnasız işə yaramaq, xeyir-xahlığa əl qoymaq və s. surətlərin nümunəsində görürük. Belə ki, şəxsiyyət tərbi-yəsində ona təsirinin xüsusiyyətini başa düşməyə kömək edir. Unutmayaq ki, hər adamın yaşından asılı olmayaraq sinirləri yerində olmur, düz xətlə getmir. Məşhur psixoloq V.M.Banşikov yazmışdır: "Min illər ərzində İnsanın yaşamaq uğrunda mübarizəsində qələbə əzələ qüvvəsilə və sinir sisteminin cəsarətlilik, qəddarlıq, inadkarlıq kimi kobud xassələrilə müəyyən edilirdi. Son iki-üç əsrdə isə insanın həyat qabiliyyəti demək olar ki, yalnız 3 sinir sisteminin ən incə mürəkkəb mexa-nizmlərindən asılıdır. Məhz elə bu mexanizmlər daha toxunula biləndir".

İnsanın mahiyyəti - varlığı onun bioloji təbiətilə yaranmır, fövqəltəbii qüvvə ilə daxil olmur, amma öz-özünə determinləşir. Tarix, sosial - mədəni inkişaf İnsa-nın - şəxsiyyətin təşəkkül prosesidir. Həyatın mənasının, vəzifəsinin dünyanın də-yişdirilməsi üzrə yaradıcı fəaliyyətin və mənəvi - əxlaqi davranışının gedişində özünü anlayır, yəni insan öz mövcudluğunu təsdiqləyir. Əlbəttə, bu baxımdan dərketmədə müəyyən hesablamalar tapılmalıdır ki, İnsan bunların vasitəsilə fəaliy-yətini əlaqələndirə bilsin, yəni fəaliyyətinin mənası, məqsədi aydınlaşdırılsın. Əks halda insan yalnız öz mövcudluğu ilə öyünərdi, öz fərdi psixologiyasına güvənərdi.

Bədii əsər deyək ki, poeziya ahəngdarlığı ilə, surətlərin davranışı ilə oxu-cunun ovqatını nizamlayır, yeni müsbət emosiya yaradır, yaxud bərpa edir, deməli, şəxsiyyəti ruhi - mənəvi harmoniyasına təsir göstərir. Şeir oxucu zövqünə düzgün ünvanlanırsa, qavranılırsa yaranan psixi effektin xarakteri həmin əsərin həm məz-mununDan, həm də oxucunun - şəxsiyyətin həyata baxışından və s. asılıdır. Bəxti-yar Vahabzadənin bir şeiri nümunəsində fikrimi əsaslandırmaq istərdim; şair həyat-da nə qazandı, nəyi itirdi? Bu suala şairin cavabı "Qara saçlar, ağ saçlar"- dır, şai-rin etirafıdır, ana qarşısında baş əyməsidir:



(B.Vahabzadə - 100)

*Saçlarıma dən düşür, dən düşür, yaman düşür,*
*Hər baxanda anamın ürəyinə qan düşür.*
*Bu ağ saçlar, ay ana, səni dərdə salmasın,*
*Saçımın ağlığından, qanın heç qaralmasın!*

*Alışıram gecələr, masa arxasında mən,*
*Saçlarım da ağarır, qəlbimin atəşindən.*
*Sən demə ki, balamın bəlkə gizli qəmi var,*
*Vaxtsız ağaran saçın özgə bir aləmi var.*

*Ölüm belə qəm deyil bu həyatı duyana,*
*Mən bu ağ saçlarımla öyünürəm, ay ana!*
*Qara, şəvə saçları təbiət vermiş mənə,*
*Mən güvənə bilmərəm onun bu töhfəsinə.*
*Zəhmət həyatımın ilk bəzəyi sanmışam,*
*Ağ saçları həyatda mən özüm qazanmışam.*

Bəxtiyar Vahabzadə şeiri 32 yaşında qələmə almışdır; bu yaşdan artıq o, poeziyada az-çox sözünü demişdi. Lakin bu yaradıcılıq uğurlarına tam haqq qa-zandırmırdı, yazıb - yaratmaq ehtirasında idi.

Kamil şəxsiyyət anlayışı Demokritdən, Sokratdan üzü bizə tərəf nə ilə səciyyələndiyi filosofları, sosioloqları, ədəbiyyatçıları xeyli düşündürmüşdür və cavabı bu olmuş ki, insanda nəyin ən yüksək nemət olması məsələsi. Onlar belə qərara gəlmişlər ki, bu ən yüksək nemətlə, fərəhlə bir müstəviddir. Mən söz adamlarını zamanın ən kamil filosofu hesab edirəm. Hərçənd, peşəkar fəlsəfəçilər şəxsiyyətlə əxlaqi fəaliyyət subyektinin dəqiq obrazını təsvir etmişlər. Şairlərdən Homer, Hesiod əsərlərində fəzilətə üstünlük vermişlər, ruhi aləmdə ağılı insan hissləri̇lə eyniləşdirmişlər. B.Vahabzadədə belə məsələlər bədii - emosional yanaşmada daha poetik səslənir. "Xoşbəxtdir o adam ki", "Zaman", "Yer öz yerində-dir", "Özümdən qabaq", "Ömür" və digər şairlərdə fikir - düşüncə insan taleyinin "vaxt ölçüsü"ndə fırlanır, özünü axtarır, insan ömrünə "qənim" kəsilir. Şair yenə şikayətçidir ki:

**Ömür bizə verilmir**
**Ancaq yaşamaq üçün.**
**Ömür bizə verilmir**
**Dünyanın da dərdini,**
**Qəmini çiynimizdə**
**Çəkmək, daşımaq üçün.**
**Ömür - qəlbin, zəkanın**
**Min eşqi, min əməli.**
**Ömür ömürdən sonra**
**Yaşamağın təməli.**

**Həyatın dar çərçivəyə sığışmayan fəlsəfəsi**

Şairin poeziyasında şəxsiyyət konsepsiyası, ümumiyyətlə araşdırılmamışdır. Altmış ildən artıq eyni zamanda pedaqoji fəaliyyətdə olan bir pedaqoqdan bir və-rəq də yazmamışlar. Halbuki, Bəxtiyar müəllim auditoriyada gənc nəsillə üz-üzə olmuşdur, tədris etmişdir. Tədqiqatçılar pedaqogikanın tərbiyə elmi olması funk-siyasından xəbərsizdilər - bu gün də! Onlar qeyri - peşəkar ədəbiyyatşünaslarımız ədəbi nümunələrdə "insan - şəxsiyyət konsepsiyası"na yaxın durmamışlar, poe-ziyanın əxlaqi tərbiyədə - davranışda sinfi və ümumibəşəri cəhətdən xəbərsizdi-lər.

B.Vahabzadə cəmiyyətdə baş verən ideoloji ziddiyyətləri nəinki görür, onu bədii şüurundan və dünyagörüşündən keçrir - bunu şairin şəxsiyyəti, vətəndaş mövqeyi tələb edir. Bəzən oxucuya elə gəlir - sənətkar estetik şüurun, dövrün ideoloji münaqişələrindən kənarda dayanır, əslində isə: "Şair yaradıcılığı boyu məktəbi, müəllimləri, şagirdləri təsvir və tərənnüm etmişdir, "Kitab", "Yazı tax-tası", "Tələbə - müəllim" , "Körpə gülüşü" və s. şeirləri bu gün də maraqla oxu-nur". "Tələbə - müəllim"də lirik təəssürat yenicə dərsə başlayan cavan oğlanla bağlıdır, o bir zaman oxuduğu məktəbin qapısından içəri girəcəkdir:

**O, düz beş il əvvəl, ayrılan zaman**
**Örtmüş qapısını həmin məktəbin.**
**Bu günsə açacaq həmin məktəbin,**
**Ona layiq olan müəllim kimi.**

Bu cavan müəllimi daha çox qocaman müəllimi qarşılayır sevinclə, bu xoş görüşdən "ürəklərə" şəfa çilənir:

***Qoca bir müəllim tək öpərək onu***
***- Nə xoş anları var, - dedi - bu ömrün***
***Səadət deyilmi öz şagirdini,***
***Bir müəllim görmək, müəllim üçün!..***

"Yazı taxtası", "Kitab" şeirləri nikbin ovqatla yazılmışdır. Hansı yaşa çatsaq da gözlərimizin önündən qara rəngli yazı taxtası və ağappaq təbaşir silinmir. Onun qarşısında dayanıb, tapşırığı həll etmiş, müəllimimizin razılığı həsrətini yaşamışıq: Şair üzünü yazı taxtasına tutur.

***Ay yazı taxtası, yazı taxtası,***
***Mən səndə nə qədər yazı yazmışam.***
***Adi rəqəmləri, adi sözləri,-***
***Siləndə min dəfə azı, yazmışam.***

Vaxt ötdükcə bu rəqəmlər silinmiş, pozulmuşdur. Şair təəccüblənməyə bil-məz:

***Yazdığım rəqəmlər, yazdığım sözlər,***
***Məgər iz salmamış heç yerdə bu gün?***

Şair yanıldığını hiss edir, həmin rəqəmlər aldığı vəsiqədir!

***Sanki vəsiqəmə yığılıb gülür,***
***Bütün o rəqəmlər, bütün o sözlər***
***Ömrümün yolunu göstərir mənə -***
***Bu gün o rəqəmlər, bu gün o sözlər.***

Bəxtiyar Vahabzadə uşaqlar üçün daima şeirlər, nəğmələr qələmə almışdır. Müxtəlif illərdə (60, 66 və 70-ci illərdə). "Uşaq və məktəb dünyası" silsiləsində onlarla şeirini balalara hədiyyə etmişdir (bax, III c. 91-108, IV c. 455-458).

*(Ardı var)*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Dünyanı dəyişmək...

## Bunun üçün ilk növbədə özümüz dəyişməliyik!

**“Təbii fəlakət nəticəsində qırılan ağacların yerində mütləq yeniləri əkiləcək”. “Hürriyyət” xəbər verir ki, bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov aprelin 15-16-da güclü yağışdan sonra yaranan mövcud vəziyyəti şərh edərkən deyib. O, daha sonra əlavə edib: ”Bakı yarımsəhra və çöl iqlim zonasında yerləşir və burada çox güclü küləklər müşahidə olunur. Bu şərait ağaclar üçün heç də münbit deyil. Əlbəttə, ağaclar da hər bir canlı orqanizm kimi müəyyən bir həyat dövrünə malikdir və mövcud iqlim şəraitini, eləcə də baş verən təbii fəlakətləri nəzərə alsaq, ağacların aşması çox vaxt qaçılmaz olur. Lakin mən əminəm ki, təbii fəlakət nəticəsində qırılan ağacların yerində mütləq yeniləri əkiləcək və yaşıl ərazilərimizin sahələri dəfələrlə artacaq. Çünki bu, ulu öndər Heydər Əliyevin baxışlarına əsaslanan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən uzunmüddətli ekoloji siyasətdir”.**

Qeyd edək ki, son illərdə istər ölkəmizdə, istər də digər xarici dövlətlərdə yağış sularının normadan artıq olması, tez-tez daşqınların baş verməsi iqlim dəyişikliyi ilə izah olunur. Hətta belə demək olar ki, bütün dünyada dağıdıcı daşqınların artması iqlim dəyişikliyinin ətraf mühitə mənfi təsirlərindən yalnız biridir... Doğrudur, iqlim dəyişikliyi ilə bağlı ziddiyyətli fikirlər də mövcuddur. Məsələn, bir qrup insan hesab edir ki, bu, xüsusən də inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan dövlətlərdəki tərəqqinin önünü kəsmək, dolayısı ilə onları öz təsir dairələrində saxlamaq üçün ortaya atılmış cəfəng iddiadır. Bu düşüncədən olan insaların fikrincə, təbiət özü özünü tənzimləyir, bu, min illər öncə də belə olub, indi də belədir.

İkicni qrup, xüsusilə elm adamları isə dəyişikliyinin bəşəriyyət qarşısında duran ən ciddi problem olduğunu elmi mülahizələri və tədqiqatları ilə izah etməyə çalışırlar. Onların əsas arqumentləri bundan ibarətdir ki, iqlim dəyişikliyinin səbəbi Yerdəki dinamik proseslər, günəş radiasiyasının intensivliyinin dəyişməsi kimi xarici təsirlər və son zamanlar insanların yaratdığı problemlərdən qaynaqlanır. Alimlər buna “qlobal istiləşmə” adı da veriblər. Onların fikrincə, problemin kökündə Yer Kürəsinin karbon-dioksid ($CO_2$) və digər istilik effekti yaradan (parnik) qazların udulması potensialı durur. Belə ki, müxtəlif növ tərəvəz və bitkilərin yetişməsi üçün lazımi temperaturu yaradan istilikxanalar kimi, atmosferdəki qazlar da günəşdən gələn istiliyi tutub saxlayaraq planetimizdə bizim yaşamağımız üçün zəruri istiliyi yaradır. Alimlərin hesablamalarına əsasən, əgər atmosferdə bu qazlar olmasaydı, onda Yer Kürəsində orta illik temperatur təxminən -19■ C olardı. Məhz buna görə, həmin qazlar istilik effekti yaradan və ya “istilikxana” qazları adlandırılır. $CO_2$ və digər qazlar atmosferin üst qatlarında günəşdən gələn istiliyi tutub saxlamaqla bizi hədsiz istilikdən mühafizə edərək bir növ görünməz mühafizə zolağı yaradırlar. Beləliklə onlar dünyada insanların normal yaşaması və fəaliyyət göstərməsi üçün zəruri temperaturun formalaşdırılmasında müstəsna rol oynayırlar. $CO_2$ atmosferə müxtəlif mənbələrdən daxil olur: kənd təsərrüfatı, landşaftdan istifadədə olan dəyişikliklər, sənaye, tullantılar, energetika və sair . XX əsrin ortalarından etibarən sənayenin inkişafı və enerji əldə etmək məqsədilə üzvi maddələrin yandırılması nəticəsində atmosferdə $CO_2$ və digər istilikxana qazlarının atmosferdəki sayı sürətlə artmışdır. Bu da öz növbəsində günəş istiliyinin atmosferdə daha çox miqdarda saxlanmasına səbəb olur.

Yazımızın əvvəlində də qeyd etdiyimiz kimi, iqlim dəyişikliyi digər ölkələrlə yanaşı, Azərbaycanda da ekologiyaya və ətraf mühitə çox böyük ziyanlar vurur. Əlbəttə, hansı ölkədə yaşamasından asılı olmayaraq, dünyamızı qorumaq, ekoloji problemlərin qarşısını almaq və faydalı işlərlə məşğul olmaq hər bir insanın borcudur. Konkret olaraq “ekoloji problem” dedikdə isə, əsasən ətraf mühitin çirklənməsi nəzərdə tutulur. Odur ki, ətraf mühitin təmizliyi, bitkilərin zərər görməməsi üçün insanların “təbiətə köməyi” mütləqdir.

Bildiyimiz kimi, havada oksigenin miqdarı az olduqda insan orqanizmi normal fəaliyyət göstərə bilmir. Üstəlik, zərərli tullantılar təkcə insan orqanizminə yox, həmçinin ətraf mühitdə yaşayan başqa canlı varlıqlara da öz mənfi təsirini göstərir. Torpaq isə qida məhsullarımızın yetişməsi üçün əsas mənbədir. Çirklənmiş, təhlükəli maddə atılmış ətraf mühitdə yetişən məhsulun zərərini də sadalamaqla bitməz. Bu səbəbdən, ekoloji problemlərin yaranmaması üçün insanlar çox diqqətli olmalıdır. Kimliyindən, vəzifəsindən asılı olmayaraq hər kəs ekologiyanın və ətraf mühitin təmiz saxlanılmasına çalışmalıdır. Çünki bəşərriyyətin yaşayışını ekologiyasız təsəvvür etmək mümkün deyil.



## Sağlam gələcək üçün ətraf mühiti öz evimiz kimi təmiz saxlamalıyıq!

İnsan təbiətlə nəfəs alır, təbiətlə zənginləşir, onunla yenilənir. Amma yalnız qanunvericilik aktları ilə təbiəti mühafizə edə bilmərik. Bunun üçün əhali geniş şəkildə marifləndirilməlidir. Digər tərəfdən, müəssisələri inşa etməzdən əvvəl onların fəaliyyəti nəticəsində ətraf mühitə dəyə biləcək zərərlər haqqında düşünmək mütləqdir. Paralel olaraq alternativ enerji mənbələrindən istifadəyə üstünlük verilməlidir. Sağlam gələcəyimiz üçün ətraf mühiti öz evimiz kimi təmiz saxlamalıyıq.

Kimsəyə sirr deyil ki, Azəbaycan dövləti yuxarıda qeyd olunan istiqamətlərdə çox uğurlu addımlar atıb və bu gün də atmağa davam edir. Ancaq, sözsüz ki, bəzi problemlər ətraf mühitin çirklənməsinə səbəb olur və ekoloji tarazlığın tənzimlənməsini təmin etməkdə dövlətə və ictimaiyyətə çətinlik törədir. Bütün bunların da qarışısını almaq üçün Azərbaycanın müvafiq qurumları, o cümlədən də Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərin səmərəli istifadə olunması, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bu tədbirlərinin hər birində marifləndici amillər yer alır.

Etiraf etməliyik ki, son illərədək bir çox xoşagəlməz mənzərə ilə də qarşılaşırdıq. Bəzi insanlar ətraf mühitin çirklənməsinə şərait yaradır, toplumun sağlamlığını, ölkəmizin gələcəyini təhlükə altına atırdı. Nə yaxşı ki, artıq bu istiqamətdə müsbət işlər görülməkdə, cəmiyyəti narahat edən problemlər tədricən öz həllini tapmaqdadır.

Lakin onu da qeyd etməliyik ki, bu məsələdə hər bir vətəndaşımızın üzərinə də böyük məsuliyyət düşür. İçdiyimiz plastik su qabını, çəkilən siqaret kötüyünü, yediyimiz hansısa bir məhsulun torbasını, çeynədiyimiz saqqız parçasını yerə deyil, zibil qutusuna atmaq belə, təbiəti qorumağa bərabərdir. Unutmayaq ki, “dünyanı dəyişmək üçün ilk növbədə özümüz dəyişməliyik”.

Təsadüfi deyil ki, bir müddət əvvəl BMT plastik qablar və polietilen torbaların istifadəsinin məhdudlaşdırılması ilə bağlı bütün dünyaya çağırış etdi. Artıq əksər ölkələrdə plastik qablar və polietilen torbalardan imtina halları sürətlə artır. Hazırda dünyanın 40 ölkəsi polietilen məhsulların istehsalını və satışını qadağan edib və ya məhdudlaşdırıb. O cümlədən, bizim ölkəmiz də plastik məmulatlardan istifadəni azlatmaq üçün hərəkətə keçib. Hədəfimiz bu tullantıların istifadəsini minimuma endirməkdir. Bu məqsədlə də ölkəmizdə plastik tullantıların düzgün idarə edilməsi və çeşidlənməsi üçün iri yaşayış məkanlarında - Bakı, Sumqayıt, Gəncə, Şabran, Lənkəran, Mingəçevir və s. şəhərlərdə xüsusi konteynerlər yerləşdirilib. Tədricən vətəndaşlarımız da ətraf mühitin mühafizəsi prosesinə qoşulmaqdadır və bu, gələcəyə böyük ümid yaradır.

Əlbəttə, biz birlikdə güclüyük. Əl-ələ verib, gələcək nəsillərin sağlamlığının qayğısına qalmaq naminə təbiəti qorumalı, onu məhv olmaqdan xilas etməliyik. Gəlin daha yaxşı gələcək üçün daha təmiz ətraf mühit yaradaq!

**“Hürriyyət”**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur